Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 56 (8079) BAZAR, 10 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV bir aya Saray nənəyə möhtəşəm ev tikdirdi

Fevralın 5-6-da Şimal bölgəsində baş verən təbii fəlakət Şamaxı, Ağsu və İsmayıllı rayonlarında fəsadlar yaratdı. Zəlzələ nəticəsində xeyli evlər qəzalı duruma düşdü. Bir gün sonra Prezident İlham Əliyev dərhal zəlzələ bölgəsinə səfər edərək insanlara böyük dəstək oldu.

Prezident İlham Əliyevin bu səfərinin ən mühüm məqamı yalnız zəlzələnin fəsadlarını yerindəcə öyrənmək deyildi. Bu, ümumilikdə Prezidentin idarəçilik fəlsəfəsinin real təcəssümü idi. Prezidentin Saray nənənin zəlzələ nəticəsində dağılmış evinə baş çəkməsi, ağbirçək ananın əlindən, gözündən öpüb ona ürək-dirək verməsi ananın ürəyini dağa döndərdi. Dövlət başçısı dağılmış evin yerində daha möhtəşəm mənzilin tikiləcəyi ilə bağlı Saray nənəyə söz verdi.

## “Elə bil ki, gəlişinizlə məni götürüb dağın başına qoymusunuz”

Cəmi bir aydan sonra, martın 7-də isə İlham Əliyev verdiyi tapşırıqların icrası ilə maraqlanmaq üçün yenə zəlzələ bölgəsinə üz tutdu. Bu dəfə isə Prezident Şamaxıya tək getməmişdi. Saray nənənin istəyini yerinə yetirərək





xanımı Birinci vitse-prezident Mehriban Əliyeva ilə birlikdə səfər etmişdi.

Bir ay müddətində biz də jurnalist marağı ilə 2 dəfə zəlzələ bölgəsinə baş çəkib həm Prezidentin tapşırığının icrasının necə yerinə yetirilməsi, həm də müvəqqəti sığınacaqlarda yerləşdirilən sakinlərin durumu ilə maraqlanıb reportajlar hazırlamışdıq.

Səfər çərçivəsində Saray nənə ilə də görüşüb Prezidentlə söhbətinin təəssüratlarını dinləyərkən hətta ağbirçək ana qəzetimiz vasitəsi ilə dövlət başçısına ismarıc da göndərmişdi: *“İlham, oğlum, Sən mənə ancaq yeni ev vermirsən, arxa-dayaq olmaqla ömrümə ömür qatırsan...”.*

Və cəmi 1 ay keçdi, İlham Əliyev 1964-cü ildə tikilən köhnə evin yerində Həsənovlar ailəsinə 9 bal gücündə zəlzələyə davamlı və əvvəlkindən daha möhtəşəm 4 otaqlı ev tikdirdi. Saray nənə martın 7-də yeni evinə qovuşdu...

Yeni evində çox xoşbəxt görünən ağbirçək ana dövlət başçısına və xanımına min alqış elədi.

**Saray nənə:** *“Gələn ayaqlarınız var olsun. Elə bil ki, Siz gəlişinizlə məni götürüb dağın başına qoymusunuz, qeyrətli balam. Çox sağ ol, çox var ol. Bizim üçün hər şey etmisiniz. Allaha çox şükür ki, gəlmisiniz...Allah haqqı, mən bilirdim ki, İlham gələcək. Gələn ayaqlarına canım qurban, gəldi də, hər cür şərait yaratdı da. Bir ana kimi mənim hər bir sözümü də yerinə yetirdi. Gələn ayaqlarına bu canım qurban”.*

**Prezident:** *“Bir ay keçdi, yenə görüşürük. Bir ay keçdi gəldim. Bir aydan sonra artıq sizin üçün gözəl ev hazırdır”.*

**Ardı 2-ci səh.**

Yuri KANNER, Rusiya Yəhudi Konqresinin prezidenti:

## “Azərbaycanda bütün xalqların nümayəndələrinin firavan yaşamaları üçün hər cür şərait yaradılıb”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kannerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kanner səfər çərçivəsində Quba şəhərinə getdiklərini, Azərbaycanın regionlarında inkişaf proseslərinin şahidi olduqlarını, ölkəmizdə bütün xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin firavan yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğuladı və bunu yüksək qiymətləndirdi.

Azərbaycanda ayrı-ayrı xalqların və dini icmaların əsrlər boyu bir ailə kimi yaşadıqlarını deyən Prezident İlham Əliyev ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin əmin-amanlıq içərisində yaşamaları üçün lazımi şəraitin mövcud olduğunu bildirdi. Dövlət başçısı Azərbaycanda sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etdi.

## “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Minimum aylıq əməkhaqqının artırılması və “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 937 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. “Dövlət qulluqçularının aylıq vəzifə maaşının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3787 nömrəli sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 511, № 7 (II kitab), maddə 1574, № 11, maddə 2287) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə “165” rəqəmləri “200” rəqəmləri ilə əvəz edilsin;

1.2. həmin sərəncamla təsdiq edilmiş 2 nömrəli Əlavənin 2.4.1.1-2.4.1.4-cü yarımbəndlərində “185”, “175”, “170” və “165” rəqəmləri müvafiq olaraq “215”, “210”, “205” və “200” rəqəmləri ilə əvəz edilsin.

2. Bu sərəncam 2019-cu il martın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 mart 2019-cu il*

## Zeynal NAĞDƏLİYEV: “Şamaxıda və Ağsuda Prezidentə təqdim olunan məktubların 80 faizində yeni evlər istənilir”



Hər bir dövlət qulluqçusunun qarşısında vəzifə qoyulub ki, vətəndaşlar arasında olsunlar. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərlərində, o cümlədən Şamaxı və Ağsuda zəlzələdən zərər çəkmiş insanların problemləri ilə maraqlanması bunun bariz nümunəsidir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri martın 9-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev bildirib.

Prezident Administrasiyasının rəsmisi Şamaxı və Ağsuda əhali tərəfindən dövlət başçısına təqdim olunan məktublarla bağlı da məlumat verib. Deyib ki, Şamaxıda və Ağsuda əhali ilə keçirilən görüşlərdə dövlət başçısına təqdim olunan məktubların hamısı nəzarətə götürülüb. Bir dənə də olsun məktub və şifahi müraciət diqqətdən kənarda qalmayacaq. Həmin məktubların mütləq əksəriyyətində yeni evlər istənilir. “Ölkəmizdə həyata keçirilən sosial siyasətin nəticəsidir ki, müraciət edən vətəndaşlar dövlət başçısından hazır ev istəyirlər. Dünyanın heç bir yerində belə təcrübə yoxdur, evlər sığortalanır, dövlət bu qayğıdan kənarda qalır. Amma Azərbaycan bu siyasətlə də öndədir. Çünki Prezidentin dediyi kimi, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır” -deyə Z.Nağdəliyev bildirib.

Zeynal Nağdəliyev qeyd edib ki, digər məktublar isə iş problemi və sosial qayğı ilə bağlıdır. Onların hər biri ciddi nəzarətə götürülüb.

## Novruz yarmarkalarında qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur

“Ölkənin bütün şəhərlərində və rayon mərkəzlərində Prezident İlham Əliyevin tapşırığı ilə Novruz bayramı yarmarkaları təşkil olunub. Qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri martın 9-da jurnalistlərə açıqlamasında Azərbaycan Respublikasının Prezidentinin ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev paytaxtın 3-cü mikrorayonu ərazisində təşkil olunmuş yarmarkada deyib.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, yarmarkaların təşkil edilməsində məqsəd vətəndaşların ucuz və keyfiyyətli məhsullarla təmin olunmasıdır.

Zeynal Nağdəliyev bildirib ki, keçən həftənin şənbə və bazar günlərində təşkil olunan yarmarkalar ilə müqayisədə məhsulların həm keyfiyyəti, həm də çeşidi baxımından xeyli irəliləyiş var. Qiymətlər bazarlarla müqayisədə dəfələrlə ucuzdur. Yarmarkalarda alıcılara 42 rayondan gətirilən 53 adda məhsul təqdim edilir. Novruz yarmarkalarında məhsulun çeşidi daha da artırılmalı və keyfiyyəti diqqətdə saxlanılmalıdır. Təşkil edilən bu yarmarkalar əhalinin bayram əhval-ruhiyyəsinə müsbət təsirini göstərəcək. Bu, dövlət başçısının xalqımızın rifahı üçün atdığı növbəti addımdır.

Prezidentin köməkçisi deyib ki, bu məsələlərə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən çox ciddi nəzarət olunur.









# İLHAM ƏLİYEV bir aya Saray nənəyə möhtəşəm ev tikdirdi

Əvvəli 1-ci səh.

**Saray nənə:** *"Sağ olun, elədir. Hər cür şərait yaratmısan. Çox sağ ol, çox var ol. Allah-taala ömrünüzü uzun etsin. Yoldaşınla qarıyasan, nəvəli-nəticəli olasan".*

**Saray nənə:** *"Siz də balamsınız, özü də qeyrətli, namuslu. Qurban olum qeyrətinə, mənim başımı çox uca etmisən".*

**Prezident:** *"Siz buna layiqsiniz. Bütün Azərbaycan sizi tanıyır, bütün Azərbaycan sizi sevir".*







## "Həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim"

Prezidentin bir aydan sonra yenidən zəlzələ bölgəsinə səfəri sakinlərin qəlbində iftixar hissi yaratdı. İnsanlar bir daha əmin oldular ki, onlar tək deyillər. Arxalarında güclü dövlət və onun qətiyyətli rəhbəri var.

Əvvəlcə martın 6-da Ağsuya səfər edən Prezident zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərlə tanış oldu. Fövqəladə hallar naziri Kəmaləddin Heydərov dövlət başçısına zəlzələ zonasında görülən işlər barədə məlumat verərək bildirdi ki, artıq Şamaxıda 22, İsmayıllıda 10, Ağsuda isə 6 fərdi evin tikintisinə başlanılıb. Tikilən yeni evlər əvvəlki evlərdən daha böyükdür və 9 bal gücündə zəlzələyə hesablanıb.

Tikinti-bərpa işlərinin sürətlə və keyfiyyətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verən Prezident sakinlərlə görüşüb söhbətləşdi. Vətəndaşları səbirlə dinləyən, məktublarını qəbul edən İlham Əliyev Ağsuya səfərinin məqsədini açıqladı:

"Gəlmişəm ki, problemləri həll edim. Mənə verilən məktubların hər birinə baxılacaq, narahat olmayın, zəlzələdən uçan bütün evlər yenidən tikiləcək. Mənim işim sizə xidmət etməkdir. Prezident kimi həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Vətəndaşları narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaq".

Bütün bunlar Prezidentin verdiyi sözə necə əməl etməsinin real göstəricisidir. Bütün bunlar vətəndaşlarda əminlik yaradır ki, İlham Əliyev heç vaxt xalqı darda qoymaz və dövlət həmişə vətəndaşının yanındadır.

Onu da əlavə edək ki, dövlət başçısı Şamaxıda zəlzələdən zərər çəkmiş ailələr üçün tikiləcək yeni yaşayış binasının təməlini də qoydu. 20 Yanvar küçəsində tikilən 44 mənzildən ibarət dördmərtəbəli bina bütün zəruri infrastrukturla təchiz ediləcək, burada 4 birotaqlı, 32 ikiotaqlı və 8 üçotaqlı mənzil olacaq.

## "Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir"

"Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir. Mənim üçün bu, böyük şərəfdir ki, sizə bu istiqamətdə xidmətimi göstərim".

Ölkə ictimaiyyətinin nümayəndələri ilə keçirdiyi görüşlərdə bu fikirləri səsləndirən dövlət başçısı əməli ilə bir daha təsdiq edir ki, fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulub. Hər zaman atdığı addımlarda xalqın maraqlarını üstün tutan, hər bir vətəndaşın Prezidenti olduğunu əməldə sübut edən dövlət başçısının sosial siyasəti ən müxtəlif sahələri əhatə edir və geniş spektrlidir.

Prezidentin söylədiyi kimi, Azərbaycan dövləti öz sosial siyasətini aparmaqda israrlıdır. Bu gerçəklikləri, baş verən yenilikləri həyatında hiss edən hər bir ölkə vətəndaşı dövlətinə və onun rəhbərinə güvənir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Tehranda Azərbaycan-İran əlaqələri müzakirə olunub



Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Həsən Ruhani ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını İran Prezidenti Həsən Ruhaniyə çatdırıb.

Prezident Həsən Ruhani Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib və onun da salamlarını Azərbaycanın dövlət başçısına çatdırmağı xahiş edib.

Nazir Rəşt-Qəzvin dəmir yolunun açılışı münasibətilə İran tərəfini təbrik edib. Öz növbəsində, İran Prezidenti Azərbaycan tərəfinin açılışda yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunmasına görə təşəkkürünü bildirib.

Tərəflər arasında iki ölkə münasibətlərinin gündəliyində olan iqtisadi layihələrə dair fikir mübadiləsi aparılıb. Eyni zamanda, ölkələrimiz arasında mədəni, siyasi, iqtisadi əlaqələrin inkişaf etdirilməsi vurğulanıb. İran Prezidenti Həsən Ruhani İran ilə Azərbaycan arasında mövcud olan əlaqələrin inkişafından məmnunluğunu ifadə edib. İranda Azərbaycan ilə əlaqələrin inkişafının hakimiyyətin bütün qolları tərəfindən dəstəkləndiyini bildirib. Prezident Ruhani Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh və diplomatik danışıqlar yolu ilə Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəklədiklərini qeyd edib.

Nazir Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidentinin bu ilin 25-26 oktyabr tarixlərində ölkəmizdə keçiriləcək Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının zirvə görüşünə dəvət məktubunu İran Prezidentinə təqdim edib. Prezident Həsən Ruhani tədbirdə iştirakı məmnunluqla qəbul edib.

Ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığı dəstəkləyən İran Prezidenti Azərbaycan-Rusiya-İran əməkdaşlığını müsbət dəyərləndirərək dövlət başçılarının növbəti zirvə görüşünün keçirilməsinin əhəmiyyətini qeyd edib. Həmçinin Azərbaycan-İran-Türkiyə və Azərbaycan-İran-Türkiyə-Gürcüstan formatında əməkdaşlığı mühüm qiymətləndirərək bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin önəmi ifadə edilib.

# *Cavad ZƏRİF:* "İran Azərbaycanın təhlükəsizlik və inkişafını özünün təhlükəsizliyi və inkişafı hesab edir"

İran İslam Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə İran xarici işlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər ikitərəfli münasibətlərin gündəliyində duran bir sıra məsələlər, eləcə də turizm və mədəniyyət sahələrində əlaqələrin inkişafı, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, o cümlədən UNESCO çərçivəsində əməkdaşlığın genişləndirilməsi kimi məsələlər ətrafında fikir mübadiləsi aparıblar.



Nazirlər Azərbaycanın cari ildə Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının zirvə görüşünə evsahibliyi edəcəyini nəzərə alaraq, zirvə görüşündən əvvəl keçiriləcək xarici işlər nazirlərinin görüşünü müzakirə ediblər.

Nazir Elmar Məmmədyarov bölgədə sülh və təhlükəsizliyin təmin olunmasının vacibliyini vurğulayıb, bu xüsusda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli məsələsini qeyd edib və qarşı tərəfə danışıqlar prosesinin hazırkı vəziyyəti barədə məlumat verib. Bölgədə sülh, təhlükəsizlik, dayanıqlı inkişaf və rifaha nail olmaq üçün münaqişənin həllinin vacib olduğu vurğulanıb.

İran naziri Cavad Zərif Azərbaycanın təhlükəsizlik və inkişafını özünün təhlükəsizliyi və inkişafı bildiyini söyləyib. İran tərəfinin Azərbaycanla hərtərəfli münasibətlərin inkişafında maraqlı olduğunu vurğulayıb. İkitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün müzakirə obyekti olan layihələrin sürətləndirilməsinin vacib olduğunu qeyd edib. İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Məhəmməd Baqirinin Azərbaycana səfəri zamanı səsləndirdiyi fikirlərin İranın rəsmi mövqeyi olduğu bildirilib. Nazir Cavad Zərif ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi əsasında həll edilməsinə tərəfdar olduğunu vurğulayıb.

# Azərbaycanın xarici işlər naziri İranın Milli Təhlükəsizik üzrə Ali Şurasının katibi ilə görüşüb

İrana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov İranın Milli Təhlükəsizik üzrə Ali Şurasının katibi Əli Şamxani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli əlaqələrin gündəliyində duran məsələlər ilə yanaşı, regional və beynəlxalq təhlükəsizlik məsələləri üzrə müzakirələr aparılıb. Həmçinin bölgədə təhlükəsizlik və əməkdaşlıq məsələlərinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Nazir Elmar Məmmədyarov ikitərəfli iqtisadi münasibətlərdən danışaraq həmsöhbətinə hazırda həyata keçirilən iqtisadi layihələr barədə məlumat verib. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların son vəziyyəti barədə qarşı tərəfi məlumatlandırıb.



Əli Şamxani Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə İranın mövqeyinin dəyişilməz olduğunu qeyd edib. O, münaqişənin Azərbaycan Respublikasının ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh və diplomatik danışıqlar yolu ilə həllinin dəstəklənildiyini vurğulayıb.

Tərəflər arasında, həmçinin regionda təhlükəsizliyə təhdid olan İŞİD və digər terror qruplaşmalarına qarşı birgə mübarizə məsələləri müzakirə edilib.

# *Əli LARİCANİ:* "İran parlamenti Azərbaycan ilə əlaqələrin inkişafına tam dəstək verir"

İrana rəsmi səfəri çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov İran İslam Respublikasının İslam Şurası Məclisinin sədri Əli Laricani ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər iki ölkə arasında əlaqələrin, o cümlədən siyasi, iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli münasibətlərin inkişafından danışıblar.

Elmar Məmmədyarov hazırda həyata keçirilən ikitərəfli iqtisadi layihələr barədə qarşı tərəfə məlumat verib. İki ölkə arasındakı Dövlətlərarası Müştərək Komissiyanın fəaliyyətini yüksək qiymətləndirən nazir parlamentlərarası dostluq qruplarının ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verdiyini qeyd edib.

İslam Şurası Məclisinin sədri Əli Laricani İran parlamentinin Azərbaycan ilə əlaqələrin inkişafına tam dəstək verdiyini bildirib. İki ölkə arasında hazırda icra mərhələsində olan layihələrin icrasının sürətləndirilməsinin önəmini vurğulayıb.



Nazir Elmar Məmmədyarov qarşı tərəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinin cari vəziyyəti barədə məlumat verib, Azərbaycanın bölgədə sülhün və sabitliyin tərəfdarı olduğunu bildirib.

Əli Laricani Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həllinə tərəfdar olduqlarını qeyd edib. İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-mayor Məhəmməd Baqirinin Azərbaycana səfəri zamanı səsləndirdiyi fikirlərin İranın rəsmi mövqeyi olduğu bildirilib. İran İslam Şurası Məclisinin sədri münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduqlarını vurğulayıb.

# 99 illik şərəfli yol

## Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz fəaliyyətində daim humanizm prinsiplərinə sadiq qalmışdır

**Bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yaranmasının 99-cu ili tamam olur. Azərbaycan Xalq Cümhuriyyəti dönəmində, 1920-ci ilin martın 10-da Fətəli Xan Xoyski və general Əliağa Şıxlinskinin təşəbbüsü ilə təsis edilən cəmiyyət ilk gündən humanizm ideallarına sadiq qalmış, məqsəd və prinsiplərinə uyğun olaraq şərəflə fəaliyyət göstərmişdir. Prezident İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamı ilə cəmiyyətin yarandığı gün - martın 10-u Azərbaycan Respublikasında Qızıl Aypara Günü kimi qeyd olunur.**



Ümumiyyətlə, çağdaş dövrümüzdə müxtəlif ölkələrdə humanitar missiya daşıyan, o cümlədən xeyriyyəçilik dəyərlərini özündə təcəssüm etdirən bu təşkilatlar istiqamətdə fəaliyyət göstərir. Bunların arasında ən qədimi isə dünyanın hər yerini əhatə edən Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatıdır. Hərəkatın banisi və qurucusu isveçrəli tacir, sülh üzrə ilk Nobel mükafatçısı Anri Dünandır.

1859-cu ildə Anri Dünan İtaliyanın şimalına, italyanların və fransızların avstriyalılara qarşı döyüş meydanının yanından keçərkən o, təsadüfən Solferino döyüşündə yaralanmış əsgərlərin arasına düşür və gördükləri onu dəhşətə gətirir. Bu barədə 1862-ci "Solferino xatirələri" adlı kitab yazır. Amma bununla kifayətlənmir və bütün dövlətlərin müharibə qurbanlarını qoruyacaq bir sazişin imzalanması ideyasını irəli sürür. "Niyə müharibə zamanı yaralılara yardım göstərən və ya yardımı təşkil edən, onların qayğısına qalan könüllü cəmiyyətlər yaradılmasın" - deyən Dünan 1863-cü ildə öz dostları ilə birlikdə bütün dünyada yaralılara yardım göstərəcək təşkilat yaratmaq qərarına gəlir. Beləliklə, dünyada ilk humanitar təşkilat olan Beynəlxalq Qızıl Xaç Cəmiyyəti yaranır. A.Dünanın anadan olduğu gün - may ayının 8-i onun şərəfinə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü kimi qeyd olunur.

Artıq 11-ci ildir ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yarandığı gün də respublikamızda təntənə ilə qeyd olunur. Çox fərəhli haldır ki, təşkilatımızın fəaliyyətinə cənab Prezident İlham Əliyev həmişə xüsusi diqqətlə yanaşır və qiymətləndirir. Bunu indiyədək dövlət başçısının cəmiyyətimizlə bağlı imzaladığı fərman və sərəncamlar, təşkilatın fəaliyyəti ilə bağlı qanunvericilik bazasının yaradılması da təsdiq edir.

Öncə onu qeyd edim ki, 1920-ci ildə mart ayının 10-da AzQAC-ın yaranması xalq tərəfindən çox müsbət qarşılanmışdır. Cəmiyyət yarandığı vaxtdan ölkəmizin sosial qayğılarının bir hissəsini öz üzərinə götürərək, humanitar problemlərin həllində fəal iştirak etmişdir. General-leytenant Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar Şıxlinskaya birinci dünya müharibəsi zamanı şəfqət bacısı kimi hərbi xəstəxanalarda yaralılara qulluq etmişdir. Məhz Nigar Şıxlinskaya AzQAC-ın "Şəfqət xidməti"nin banisi olmuşdur.

Lakin 1920-ci ilin aprel çevrilişindən sonra AzQAC-ın fəaliyyəti məhdudlaşdırılıb və ona məxsus olan bütün əmlak alınaraq dövlətə təhvil verilmişdir. 1922-ci ilədək Azərbaycanda formal olaraq Rusiya Qızıl Xaç Cəmiyyətinin nümayəndəliyi fəaliyyət göstərmişdir. 1922-ci ilin oktyabr ayından Azərbaycan Xalq Komissarları Şurasının qərarı ilə yenidən AzQAC formalaşıb və 1991-ci ilədək Ümumittifaq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Birliyinin üzvü kimi humanitar fəaliyyətini davam etdirmişdir. Bu milli cəmiyyət sovet hakimiyyəti illərində də bir sıra uğurlar qazanmışdı. Xalqımızın çətin məqamlarında çeviklik və həssaslıq nümayiş etdirən cəmiyyət vaxtilə geniş yayılmış vərəm, vəba, difteriya və digər yoluxucu xəstəliklərin qarşısının alınmasında nəzərəçarpan rol oynamışdır. Bu sırada İkinci Dünya müharibəsi zamanı Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil edilmiş şəfqət bacıları kurslarını xüsusi olaraq qeyd etmək lazımdır. Qızıl Aypara Cəmiyyətinin şəfqət bacılarının II Dünya müharibəsi illərində yaralı əsgərlərimizə göstərdikləri fədakar və qayğıkeş xidmət ordunun döyüş qabiliyyətinin yüksəlməsinə və faşizm üzərində qələbənin əldə olunmasına mühüm töhfə vermişdir. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının ən yüksək mükafatı - "Florens Nayntingel" medalı ilə təltif olunanlar sırasında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin şəfqət bacılarının da olması vətəndaşlarımızın qəlbində qürur hissi doğurur. Bu günə kimi 12 belə tibb işçimiz bu medala layiq görülüb.

1991-ci ildən AzQAC-ın fəaliyyətində yeni mərhələ başlayır. Belə ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra milli cəmiyyət də müstəqil fəaliyyətini elan etmiş və Ümumittifaq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Birliyinin tərkibindən çıxmışdır.

Ötən əsrin 90-cı illərinin əvvəlləri Azərbaycanda təlatümlü dövr idi. Bir tərəfdən torpaqlarımız işğala məruz qalır, digər tərəfdən səriştəsiz iqtidar qan bahasına əldə etdiyimiz müstəqilliyimizi uçuruma aparırdı. Məhz belə bir ərəfədə yenidən təşkilatlanan AzQAC ilk gündən etibarən Azərbaycanın qarşılaşdığı ciddi problemlərin həlli istiqamətində fəal iş aparmışdır. Müstəqilliyimizin ilk illərində ölkədə mövcud olan çətinliklərin, xüsusilə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış problemlərin aradan qaldırılmasında əsas rol oynayan təşkilatlardan biri məhz AzQAC olmuşdur. Bu mənada o çətin illərdə öz vəzifəsini vicdanla, layiqincə yerinə yetirmişdir.

AzQAC-ın bugünkü inkişaf mərhələsinə çatmasında Azərbaycan dövlətinin rolu, xüsusən ulu öndər Heydər Əliyevin vaxtilə cəmiyyətə göstərdiyi yüksək diqqət və qayğı qeyd edilməlidir. Müstəqilliyin ilk illərində öz missiyasını davam etdirən cəmiyyətin heç bir hüquqi bazasının olmaması, beynəlxalq aləmdə tanınmaması, bütövlükdə, ölkədəki gərgin vəziyyət onun inkişafı üçün böyük problemlər yaradırdı. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra AzQAC yeni inkişaf dövrünə qədəm qoydu və qurumun fəaliyyətində yeni mərhələ başlandı. Məhz Heydər Əliyevin təşəbbüsü hələ 1994-cü ildə - ölkəmizin çox çətin anlarında AzQAC-ın humanizm, mərhəmət və xeyriyyəçilik məramlı təşkilat kimi tənha adamlara, xəstələrə, qaçqınlara və məcburi köçkünlərə, müharibə, milli zəmində münaqişə, təbii fəlakətlər və bədbəxt hadisələr zamanı zərərçəkənlərə tibbi, sosial maddi yardım göstərməklə məşğul olmasını, beynəlxalq humanitar təşkilatlarla sıx əlaqədə işləməsini və fəaliyyətinin normativ tənzimlənməsinin təkmilləşdirilməsi zərurətini nəzərə alaraq, cəmiyyətin milli bir qurum kimi dövlət tərəfindən tanınması istiqamətində Milli Məclis tərəfindən xüsusi qərar qəbul edildi. Bundan sonra Beynəlxalq Qızıl Xaç Komitəsi cəmiyyətimizi tanıdı və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası AzQAC-ı öz sıralarına tam və bərabərhüquqlu üzv kimi qəbul etdi.

Bundan sonrakı dövrlərdə də ulu öndər AzQAC-ın Azərbaycan cəmiyyətinin ayrılmaz tərkib hissəsinə çevrilməsi, onun fəaliyyətinin təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi üçün diqqət və qayğısını əsirgəməmişdir. Heydər Əliyevin 12 mart 2003-cü il tarixində AzQAC-ın iyirminci qurultayına təbrik məktubu ulu öndərin cəmiyyətimizin fəaliyyətinə verdiyi əvəzsiz qiymətdir. *"Qızıl Aypara Cəmiyyəti bu gün öz qüvvələrini səfərbər edərək, müstəqil Azərbaycan Respublikası qarşısında duran vəzifələrin yerinə yetirilməsində yaxından iştirak edir. Ermənistanın respublikamıza qarşı yeritdiyi işğalçılıq siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkünlərin sosial-məişət problemlərinin həllində, əsir və girovların azad edilməsi və reabilitasiyasında Qızıl Aypara Cəmiyyətinin fəaliyyəti təqdirəlayiqdir. Azərbaycan Respublikasının müstəqil dövlət kimi həyata keçirdiyi xarici siyasət beynəlxalq aləmdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin də fəaliyyət dairəsini genişləndirir, onun inkişafı üçün yeni perspektivlər açır"* - deyə ulu öndər təbrikində yazırdı.

AzQAC-ın inkişafında son 15 il xüsusilə əlamətdardır. Hər bir sahədə ulu öndər Heydər Əliyevin siyasi xəttini layiqincə davam etdirən, zənginləşdirən, ötən 15 ildə Azərbaycanı böyük inkişaf yoluna çıxaran Prezident İlham Əliyev bu müddətdə AzQAC-ın da fəaliyyətinə yüksək diqqət və qayğı ilə yanaşmışdır. Məhz Azərbaycan Prezidenti, AzQAC-ın fəxri üzvü cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində cəmiyyətimiz bu gün MDB ölkələri arasında ən inkişaf etmiş və ən yaxşı təchiz olunmuş cəmiyyətlərdən birinə çevrilib. Qürur hissi ilə qeyd etmək istərdim ki, cənab İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk aylarda verdiyi qərarlardan biri "Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında" 31 yanvar 2004-cü il tarixli sərəncam olmuşdur.

2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qanunun qəbulu cəmiyyətin statusunun, hüquqlarının və fəaliyyət istiqamətlərinin, dövlət və yerli özünüidarə orqanları ilə qarşılıqlı münasibətlərinin hüquqi əsaslarının müəyyən edilməsi baxımından mühüm addım oldu. Bu qanunun qəbulu da məhz Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü nəticəsində mümkün oldu. Qanun layihəsi 2007-ci il mayın 8-də parlament tərəfindən qəbul edildi və dövlət başçısının 2007-ci il 22 may tarixli fərmanı ilə qüvvəyə mindi. Bu, Azərbaycan Respublikası Milli Məclisinin Qızıl Aypara Cəmiyyəti haqqında qəbul etdiyi ikinci hüquqi sənəd idi.

Yuxarıda qeyd etdiyimiz kimi, Prezident İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamına əsasən silahlı münaqişə qurbanlarına, fövqəladə hallar nəticəsində zərər çəkmiş insanlara humanitar yardım və sosial xidmətlərin göstərilməsi sahəsində AzQAC-ın səmərəli fəaliyyəti nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında Qızıl Aypara Günü kimi qeyd olunur. Cəmiyyətin 85, 90 və 95 illik yubileylərində AzQAC əməkdaşlarının orden və medallarla təltif olunması fəaliyyətimizə verilən ali dəyər olmaqla bizlərə humanizm və xeyriyyəçilik kimi müqəddəs missiyamızı daha inamla həyata keçirməyimizə yüksək stimul vermişdir. Xüsusilə qeyd etmək istərdim ki, 2010-cu ildə cəmiyyətin 90 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi də qurumun fəaliyyətinə verilən yüksək qiymətin əyani nümunəsidir. Yubileyimizin dövlət səviyyəsində qeyd olunması təkcə zəhmətlər, fədakarlıqlar hesabına keçilən yolun qiymətləndirilməsi deyil, eyni zamanda, ülvi, bəşəri hisslərin - sevginin, qayğıkeşliyin, məhəbbətin, mərhəmətin təntənəsi idi.

2013-cü ilin mart ayında Prezident İlham Əliyevin AzQAC-ın XXIV Baş Məclisinə göndərdiyi məktubda cəmiyyətimizlə bağlı söylədiyi fikirlər əməyimizə verilən qiymətin göstəricisidir: *"Respublikamızın müasir ictimai və sosial həyatında Qızıl Aypara Cəmiyyəti özünəməxsus yer tutur, humanizm və könüllülük prinsiplərinə əsaslanaraq qayğıya ehtiyac duyan insanlara lazımi yardım göstərir. Davamlı inkişaf dövrünü yaşayan Azərbaycan Respublikasında əhalinin sosial rifah halının təmin olunması hökumətin başlıca vəzifələrindən birini təşkil edir. Son illərdə sosial müdafiəyə ehtiyacı olan vətəndaşların, müharibə əlilləri və şəhid ailələrinin, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin və rifahının yaxşılaşdırılması istiqamətində əsaslı işlər görülmüşdür. Eyni zamanda, məruz qaldığımız təbii fəlakətlər - daşqın və zəlzələ nəticəsində ölkəmizdə təsərrüfatlara dəymiş ziyanın aradan qaldırılması, dağılmış yaşayış məntəqələrinin bərpası və yenidən qurulması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilir. Biz bu problemləri kənardan heç bir yardım almadan, dövlətimizin yaratdığı iqtisadi potensiala arxalanaraq həll edirik. Azərbaycan Qızıl Aypara Cəmiyyəti də imkanları daxilində müəyyən sosial çətinliklərlə üzləşən vətəndaşlara maddi və mənəvi dəstək göstərir, bu sahədə üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışır".*

Bu gün ölkəmizdə qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyəti, onların inkişafı üçün hər cür şərait yaradılıb. Həmin şəraitdən istifadə edən Azərbaycan Qızıl Aypara Cəmiyyəti fəaliyyət dairəsini daim genişləndirir. Regionda, MDB məkanında nümunəvi bir quruma çevrilən cəmiyyət Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının İdarəetmə Şurasının demək olar ki, bütün strukturlarında təmsil olunur. Biz beynəlxalq arenada qəbul olunan qərarlara təsir etmək gücünə malikik, bizimlə məsləhətləşirlər. Bir sözlə, bu gün biz güclü milli təşkilat qurmağa müvəffəq olmuşuq. Bütün bunlar Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısının sayəsində mümkün olub. Azərbaycan Respublikası Prezidentinin təşkilatımızın fəxri üzvü olması bu qurumun dəyərini, xüsusi çəkisini artırıb. Bu həm də fəaliyyətimizə diqqət və qayğının yüksək göstəricisi olmaqla bizi işimizdə daha məsuliyyətli olmağa, ölkəmizə layiqincə xidmət etməyə sövq edir.

AzQAC Azərbaycanda 350 mindən çox üzvü, 25 minədək könüllüsü olan yeganə qeyri-hökumət təşkilatıdır. Hazırda cəmiyyətin 90-a yaxın yerli bölməsi və 8 regional mərkəzi uğurla fəaliyyət göstərir. Beynəlxalq hərəkatı respublikamızda təmsil edən cəmiyyətin əsas məramı bəşəri fundamental prinsipləri rəhbər tutaraq, müvafiq qanunvericilik çərçivəsində əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə təmənnasız ilkin tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlərin göstərilməsindən ibarətdir. Bu mənada cəmiyyətin fəaliyyəti çoxsahəlidir. Fəaliyyətimizi koordinasiya etmək məqsədilə Fövqəladə Hallar, Səhiyyə, Təhsil nazirlikləri, Dövlət Miqrasiya Xidməti, ANAMA, Beynəlxalq Miqrasiya Təşkilatı ilə memorandumlar imzalanmışdır.

*Bu gün AzQAC 99 yaşını başa vurur. Cəmiyyətimiz qocaman olsa da, ruhən gəncdir. AzQAC-a dövlət və ictimaiyyət tərəfindən göstərilən böyük diqqət fəaliyyətimizin daha səmərəli qurulmasına yol açır. Cəmiyyətimiz bundan sonra da Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi kimi öz müqəddəs missiyasını uğurla davam etdirəcək, müstəqil Azərbaycanımıza layiqincə xidmət göstərəcək.*

***Novruzəli ASLANOV,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti,***
***Milli Məclisin deputatı***

# Kənd təsərrüfatı yarmarkaları istehsalçını da, istehlakçını da razı salır






Dövlət baçısının göstərişi ilə təşkil edilən kənd təsərrüfatı məhsullarının yarmarkaları məzmununa, miqyasına və satışın təşkili mexanizmlərinə görə sosial tədbir olaraq xüsusi əhəmiyyət kəsb edir.




Bu ayın əvvəlində Elmlər Akademiyasının bağındakı fəvvarələrdən bir qədər yola tərəf elə vurçatlasın idi ki, kənardan baxanın ağlına yalnız bu gələrdi: yəqin ki, film çəkirlər. Burada qızğın iş gedirdi - əraziyə əvvəl beton plitələr düzüldü, sonra dəmir konstruksiyalar gətirildi, montaj-quraşdırılma işləri başlandı. Konstruksiyaları daşıyan maşınlar, bağda işləyən texnika, ümumiyyətlə, tədricən saray kimi ucalaraq pavilyona çevrilən bu tikinti, prosesi idarə edən, göstəriş verən və nəzarət edənlərin geyimi elə təsəvvür yaradırdı ki, doğrudan da, sanki hansısa bir filmin istehsalı üçün dekorasiyalar qurulur. Özü də işlər elə mükəmməl görülürdü ki, akademiyanın bağında bir daş belə yerindən qopmur, bir tullantı belə ətrafa atılmırdı. Biz və buradan gündə bir neçə dəfə keçənlər isə səbirsizliklə bu boyda işin axırını gözləyirdik.



Tikinti-quraşdırma işləri başa çatdıqdan sonra lövhələr vuruldu, yenə müasir maşınlar pavilyonun ətrafında yer aldı. İçəridə qurulan piştaxtaların üstünə geniş çeşiddə meyvə-tərəvəz məhsulları daşınanda anladıq ki, bu xına o xınadan deyilmiş. Məlum oldu ki, xalqımızın ən əziz və müqəddəs bayramlarından olan Novruzun yaxınlaşması ilə əlaqədar burada müxtəlif bölgələrdən gələn fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətindən 30-40 faiz ucuz təklif edəcəklər. Yarmarkalarda məhsulların keyfiyyətinə və qiymətinə müvafiq qurumlar tərəfindən nəzarət olunacaq.

Prezident İlham Əliyevin tapşırığı ilə artıq paytaxtın 14 ünvanında - ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri Novruz yarmarkaları fəaliyyətə başlayıb. Martın 16-dan 21-dək isə Novruz yarmarkaları hər gün alıcılara xidmət göstərəcək.

Yarmarkaların yüksək səviyyədə təşkil edilməsinə Prezident Administrasiyasının təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi nəzarət edir. Yasamal rayonunda AMEA-nın binasının qarşısındakı parkda, Nərimanov rayonunda F.X.Xoyski prospektindəki Qələbə meydanında, Nizami rayonunda Qara Qarayev prospektində və C.Naxçıvanski küçəsində, Səbail rayonunda Seyran Məmmədov və Nizami küçələrində, Binəqədi rayonunda 7-ci mikrorayondakı Kunanbayev küçəsində, Xətai rayonunda Məzahir Rüstəmov küçəsi ilə Sarayevo və S.Ə.Şirvani küçələrinin kəsişməsində, Qaradağ rayonunun Lökbatan qəsəbəsində, Nəsimi rayonunda 3-cü mikrorayonda, Piralları rayonunun mərkəzində, Sabunçu rayonunun Bakıxanov qəsəbəsində, Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində, Xəzər rayonunun Mərdəkan qəsəbəsində, həmçinin Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində fəaliyyət göstərir. Təkcə Bakıdakı yarmarkalara 42 rayondan müxtəlif çeşiddə məhsullar çıxarılır.



Elmlər Akademiyasının bağındakı yarmarkaya bir də baş çəkdik. Burada səliqə-sahman hökm sürürdü, satıcılar da ünsiyyətə meyilli və mehriban idilər. Hacı Fazil arıçıdır, öz məhsulunu gətirib. Balın keyfiyyətini yoxlamaq üçün qoxusunu sinəmizə çəkirik, meşə ətri gəlir. Deyir ki, cökə balıdır. Sonra da arıçılığın əziyyətindən danışır: "Artıq əvvəlki kimi deyil, bal yığmaq üçün pətəkləri az qala tərəkəmə kimi gəzdirəsən ki, arı tez oyansın. Arandan dağlara kimi il ərzində 3-4 dəfə arıları gəzdiririk. Çobanın işi asandır - bir yaylağa qalxır, bir də qışlağa enir. Biz isə peşəmizdən zövq alırıq, pətəkləri də övladımız kimi sevirik".

Fazil bizə arı tozunu, güləmi, dələmumu göstərir ki, bunlar can dərmanıdır. Sən demə, faydasına və orqanizmə xeyrinə görə bal bütün arıçılıq məhsullarından axırda gəlir.

Fazildən yarmarkadan razı olub-olmadığını soruşduq. "Niyə də razı olmayım?! Yer pulu almırlar, incitmirlər. Nə kömək lazımdırsa, edirlər. Kəndli üçün belə fürsət ələ düşməz. Düzdür, tələb var ki, qiymətləri qaldırmayaq, nəzarət də güclüdür. Amma o da var ki, mən evimdə bir aya satdığımı burda bir günə satıram. Elə gün olur ki, 400 manatlıq alver edirəm. Yəni qiymətin aşağı olması o qədər ziyanımıza deyil".



Möhsün Ağayev Neftçalanın Bankə qəsəbəsindəndir. Piştaxtasının üstünə 10-dan artıq pendir növü düzüb. Qiymətləri soruşuruq. Aydın olur ki, marketlərdəkindən xeyli ucuzdur.

- Özüm neçə ildir pendir tuturam, - deyir Möhsün. - Asan iş deyil. Amma əziyyət çəkəndə, çeşidi artıranda gəlir də artır. Fransızlar 300 adda pendir istehsal edirlər. Mən də kifli pendir hazırlamışam. Əziyyət çəkmişəm, iki ilə yetişdirmişəm. Müştəri başa düşmür, 9 manata bahadır deyir. Fransızlar isə iki ilə yetişən pendiri 50 avrodan aşağı satışa çıxarmırlar. Amma belə yarmarkalarda bizi başa düşən, dəyər verən, məhsulumuzun ucuzunu da, bahasını da alan müştərilər var. Bu da adamın ürəyinə yatır.

Bayram bazarlığına gələnlərlə də danışdıq. Mədinə xanım ömründə birinci dəfə müsahibə verdiyini deyib gülümsəyir, bayramımızı təbrik edir: "Mən bu yarmarkadan razı qaldım. Bayrama hələ xeyli qalıb, amma görün nə qədər adam var. Əgər bahalıq olsaydı, bura ayaq basan olmazdı. İki il əvvəl, heç yadımdan çıxmır, evimizin yanındakı supermarketə bayram süfrəsinə çərəz almağa getmişdim. 50 manat pula heç üç kiloqram çərəz ala bilmədim. Burda 38 manat xərcləmişəm, 6 kiloqramdan artıq 11 adda çərəz almışam. Adam bazarlığına da, pulunun bərəkətinə də sevinir".



Dövlət başçısının tapşırığı ilə təşkil edilən bu yarmarkaları əslində kənd təsərrüfatı məhsullarının satışının yeni layihəsi kimi qiymətləndirmək mümkündür. Belə ki, bu yarmarkalara fermerlər birbaşa çıxır, yer pulu ödəmir, qiymətləri aşağı salanda itkiləri yox, qazancları daha çox olur. Bu gün ölkədə ən ciddi problemlərdən biri kənd təsərrüfatı məhsullarının satışında malın alıcıya çatanadək bir neçə dəfə əldən-ələ keçərək qiymətlərin süni şişirdilməsi ilə bağlıdır. Hər dəfə malın qiyməti elə qalxır ki, son nəticədə alıcı ala bilmir, fermerlər isə onları qədərsiz sıxan alverçilərin əlindən malını sata bilmədiklərindən sıxıntıya düşürlər. Bu baxımdan indiki yarmarkalarda ən vacibi odur ki, istehlakçı malı real bazar qiymətlərindən xeyli ucuz ala bilir, kəndli satdığını alverçiyə, aragörənlərə satdığından bir qədər baha satır. Alan da, satan da son nəticədə udur.

***Bahadur İMANQULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Zəlzələdən zərər çəkənlər arxalı olduqlarını bir daha yaşadılar



Bu il fevral ayının 5-də və 6-da baş verən zəlzələdən zərər çəkmiş bölgələrin sakinləri təbii fəlakətin ertəsi günü Prezident İlham Əliyevin onlara baş çəkməsi barədə hələ də həyəcanla, eyni zamanda həm kövrəkliklə, həm də məmnunluqla danışırlar. Həmişə xalqla birlikdə olan rəhbərin dərhal zəlzələ zonasına gəlməsi bir daha göstərdi ki, Prezident öz ənənəsinə sadiqdir. Dövlət başçısı bu günlərdə fəsadların aradan qaldırılması üçün görülən işlərlə tanış olmaq üçün yenidən həmin ərazilərə səfər etdi.

Məlum olduğu kimi, dövlət başçısı zəlzələ nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün bu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 2 milyon manat ayrılması haqqında sərəncam imzalamışdı. Zəlzələdən zərər çəkmiş insanlarla görüşlərində bildirmişdi ki, fəsadlar aradan qaldırılacaq. Müvafiq icra strukturlarına isə əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün tapşırıq və göstərişlər vermişdi.

Cənab İlham Əliyev "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" sözlərinə sadiq olduğunu çətinliyə düşmüş insanlara verdiyi vədə əməl edərək bir daha təsdiqlədi. Prezidentin bir mühüm ənənəsi də verdiyi tapşırıqların yerinə yetirilməsini şəxsən özünün nəzarətində saxlamasıdır. Bir ay əvvəl zəlzələnin fəsadlarının aradan qaldırılması üçün verilən tapşırıqlarla bağlı görülən işlərlə tanışlıq üçün martın 6-da Ağsu rayonuna gəlməsi də deyilənlərə əyani misaldır.

Episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələ nəticəsində adıçəkilən bölgələrdə və Şamaxıda fərdi evlər qəzalı vəziyyətə düşmüş, bir sıra sosial obyektlərə və infrastruktura ziyan dəymişdi. Verilən tapşırıqlara əsasən, qısa müddətdə bu ərazilərdə mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilib. Hər üç rayonda tikinti və təmir işlərinə başlanıb.

Prezident Ağsuya səfəri zamanı Gülarə Hökmrəvanın ailəsi üçün inşa edilən evin tikintisi ilə maraqlandı. Ev sahibinin oğlu ilə söhbət etdi. Həmin gün dövlət başçısı eləcə də Həcər Zamanovanın ailəsi üçün tikintisi davam edən evdə görülən işlərlə tanış oldu.

Yeni tikilən bütün evlərdə yaşayış üçün hərtərəfli şərait yaradılacaq.

Yaradılmış komissiya əhalinin müraciətlərinə əsasən indiyədək Şamaxı, Ağsu və İsmayıllıda 7273 evə baxış keçirib. Aydın olub ki, evlərin bir çoxunun təmir və bərpa edilməsinə ehtiyac var. 88 ev isə sökülməyə hazırlanıb, 65 ev sökülüb. 40-a yaxın ev yenidən tikilir.

Görülən genişmiqyaslı işlərə baxmayaraq, Prezident İlham Əliyev rayon sakinlərini bir daha dinlədi, onları narahat edən məsələlərlə maraqlandı. Bir çoxları öz istəklərini bildirdilər, ərizələrini təqdim etdilər. Dövlət başçısı bunlarla bağlı yenə də müvafiq tapşırıq və tövsiyələr verdi.

Bu, dövlət başçısı ilə xalqın nümayəndələrinin növbəti bir görüşü idi və iqtidarla insanların birliyinin, qarşılıqlı ehtiram və sevgisinin, qayğı və dəstəyinin daha bir nümayişinə çevrildi.

Martın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıda zəlzələdən zərər çəkmiş ailələr üçün tikilən yeni evlərə baxdılar.

Dövlət başçısı və birinci xanım Şamaxı şəhəri Salman Mümtaz küçəsinin sakini Rasim Həsənovun ailəsi üçün tikilmiş evdə yaradılan şəraitlə tanış oldular. Burada onlar ailə üzvləri ilə çay süfrəsi arxasında səmimi söhbət etdilər.

Daha sonra Prezident və birinci xanım şəhərin Teymur Əliyarbəyov və Səttar Bəhlulzadə küçələrində təzə tikilən evlərə baxdılar. Ev sahiblərindən Elmira Həsənova və Vüqar Teyfurovla söhbət etdilər. Bir ay əvvəl təbii fəlakətdən zərər çəkmiş bu insanlar düşdükləri çətinlikləri unudaraq Novruz bayramı ərəfəsində yenidən ev-eşik sahibi olduqlarına görə sevinclərini İlham Əliyev və Mehriban Əliyeva ilə bölüşdülər.

Həmişə belədir - Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva çətin gündə olduğu kimi, şad və sevincli günlərdə də xalqla brlikdədirlər.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "800 min nəfərin kredit probleminin birdəfəlik həlli təqdirəlayiq haldır"

"Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanı çox mühüm sosial-iqtisadi əhəmiyyətə malikdir. Müasir bazar münasibətləri şəraitində çox az ölkədə əhalinin maliyyə-kredit probleminin həlli ilə bağlı belə hüquqi sənəd qəbul olunur və onun icra mexanizmi tətbiq edilir".

Bunu AZƏRTAC-a AMEA İqtisadiyyat İnstitutunun Maliyyə, pul-kredit siyasət şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent Yaşar Məmmədov deyib.

Ekspert bildirib: "2015-ci ildə baş verən devalvasiya prosesləri əhalinin müəyyən qisminin maliyyə vəziyyətinə neqativ təsir göstərməklə onların ödəmə qabiliyyətinin zəifləməsinə, kredit borcu olan insanların kredit öhdəliklərinin kifayət qədər artmasına və bu öhdəliklərin yerinə yetirilməsi ilə bağlı onların məhkəmələr qarşısına çıxmasına səbəb olmuşdu. Belə ki, maliyyə-bank sektorunun baş verən devalvasiya proseslərindən sonra üzləşdiyi problemlər və itkilər əhalinin müəyyən hissəsinin maddi durumuna ciddi təsir göstərmişdi. Borc məngənəsindən qurtara bilməyən insanlar həm maliyyə itkiləri ilə, həm də psixoloji problemlərlə üzləşmişdilər. Vəziyyətin mürəkkəbliyini nəzərə alan ölkə başçısı əhalini və maliyyə-bank sektorunu çətin durumdan qurtarmaq üçün son dərəcə vacib bir sənədə imza atdı".

Sözügedən fərmanın sosial əhəmiyyətinin kifayət qədər yüksək olduğunu vurğulayan ekspert qeyd edib ki, 800 min nəfərin kredit probleminin birdəfəlik həll edilməsi təqdirəlayiq haldır. Bu fərman xarici valyutada kreditləri olan insanların üzləşdiyi maliyyə itkisinin qarşını almaq və onlara dövlət dəstəyini təmin etmək məqsədi daşıyır. Digər tərəfdən, bu sənəd insanların dövlətçiliyə inamını, dövlətin isə öz vətəndaşlarına olan qayğısını bir daha təsdiqləyir.

"10 min ABŞ dollarınadək, milli valyutada isə 17 min manatadək əsas kredit borcu olan fiziki şəxslərin borc məsələsinin həlli və restrukturizasiyası banklarla bağlı kifayət qədər maliyyə problemi yaşayan insanların maddi və sosial vəziyyətinin sabitləşdirilməsi baxımından, həqiqətən də, xüsusi əhəmiyyət kəsb edir" deyən Y.Məmmədov bildirib ki, Prezident İlham Əliyev son bir neçə ildə ciddi problemlər yaşayan bank sektorunun vəziyyətini də yaddan çıxarmadı. Belə ki, mövcud problemin həlli ilə bağlı banklara 682 milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilmiş güzəştli kreditin ayrılması, həm də ölkənin maliyyə bazarlarının sağlamlaşdırılması məqsədi daşıyır. Bununla yanaşı, fərmanda nəzərdə tutulduğu kimi, bankların valyuta mövqeyinin pisləşməsinin qarşısını almaq məqsədilə ayrılmış kreditin hesabına banklara 215 milyon ABŞ dolları dəyərinədək xarici valyutada ifadə olunan və illik faiz dərəcəsi 0,5 faiz olmaqla qiymətli kağızların verilməsinin təmin edilməsi bank sektorunun müasir və perspektiv fəaliyyətinin sığortalanmasına xidmət edir.

Ekspert hesab edir ki, fərmanda banklara verilən tövsiyələr onların həm müasir, həm də perspektiv fəaliyyəti baxımından önəmli hesab olunmalıdır. Çünki bank-müştəri münasibətlərinin daha düzgün və məqsədəuyğun şəkildə qurulmasına yönələn bu tövsiyələr bank sektorunun müştərilərlə münasibətinə beynəlxalq təcrübədə olan prinsiplərlə yanaşmasını ifadə edir: "Fərmanın fəlsəfəsi deməyə əsas verir ki, bankların kredit münasibətləri ilə bağlı fiziki, hüquqi şəxslərlə bağladıqları müqavilələr ciddi şəkildə təhlil və qiymətləndirilməyə söykənməli, hər iki tərəfin tam anlaşıqlı şəkildə baxışlarını ifadə etməlidir. İnsani və dini baxımdan yanaşdıqda deyə bilərik ki, bu fərman borclu insanlarımızın çətin vəziyyətini nəzərə alıb, onların maddi-maliyyə durumunu yaxşılaşdırmaq istiqamətində atılan bir addım kimi xüsusi əhəmiyyət kəsb edir".

## Maliyyə Nazirliyinin saytında problemli kreditlərlə bağlı vətəndaşların müraciəti üçün xüsusi bölmə yaradılıb

Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində problemli kreditlərlə bağlı vətəndaşların müraciəti üçün xüsusi bölmə yaradılıb.

Bölmədə Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanla əlaqədar vətəndaşlar tərəfindən tez-tez verilən suallara cavab tapmaq, eləcə də yeni sual ünvanlamaq mümkündür.

Həmçinin bölmədə fiziki şəxslərin xarici valyutada əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi ilə əlaqədar güzəşt kalkulyatoru da fəaliyyət göstərir.

## Sanitar və fitosanitar nəzarət tədbirlərinin icrasında idarələrarası koordinasiya üzrə seminar yekunlaşıb

Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində "Dövlət Gömrük Komitəsi (DGK) üçün Sanitar və Fitosanitar Nəzarət (SPS) Tədbirlərinin İcrasında İdarələrarası Koordinasiya" üzrə seminar yekunlaşıb.



Seminarın bağlanış mərasimində DGK-nın Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsi rəisinin birinci müavini Mübariz Mustafayev seminarın gənc kadrların peşə biliklərinin təkmilləşməsində müsbət təsir göstərəcəyini vurğulayıb.

ABŞ-ın ölkəmizdəki səfirliyinin bölmə rəhbəri Castin Berq təlimin təşkilində göstərdiyi dəstəyə görə DGK-ya təşəkkürünü bildirib. Daha sonra ekspertlər yekun nitqlə çıxış edərək seminarın məhsuldar keçdiyini, fikir mübadiləsi zamanı iştirakçıların xüsusi olaraq fəallıq nümayiş etdirdiklərini bildiriblər. Eyni zamanda, gələcəkdə əməkdaşlığın gücləndirilməsi üçün zəruri addımlar atılmasının vacibliyi diqqətə çatdırılıb. Seminarın sonunda iştirakçılara sertifikatlar təqdim olunub.

Seminarda Dövlət Gömrük Komitəsinin gömrük-sərhəd buraxılış məntəqələrində çalışan müfəttişləri və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları iştirak ediblər. Təlim çərçivəsində beynəlxalq ekspertlər tərəfindən "Beynəlxalq təşkilatlarla əməkdaşlıq üzrə cari təşəbbüslər", "Ticarət prosedurlarının sadələşdirilməsi və sanitar və fitosanitar tədbirlərin tətbiqinə dair saziş üzrə idarələrarası koordinasiya", "Nəzarət üzrə qabaqcıl təcrübə və SPS prosedurlarının səmərəliləşdirilməsi" və digər mövzularda məlumat verilib.

## ABA "Cəmiyyətdə qadın menecerin rolu" adlı tədbir keçirib

Ötən ildən etibarən keçirilən tədbir bu il "Göründüyündən güclü, olduğundan zərif" adı ilə baş tutub. Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyev bank sektorunda qadınların rolundan və bu rolun əhəmiyyətindən danışıb.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar Rzayev "Qadın incəsənətdə" adlı mövzu ilə çıxış edib. Daha sonra "Accessbank" QSC-nin idarə heyətinin sədri Anar Həsənovun "Qadın bank sektorunda" mövzusunda çıxışı dinlənilib.

"Yapı Kredi Bank Azərbaycan" QSC-nin idarə heyətinin üzvü Sinan Ağırbaş "İşgüzar qadın, xarici təcrübə" mövzusunda çıxışında xarici təcrübəni rəqəmlərlə qonaqların diqqətinə çatdırıb. "ALPHA Coaching & Consalting" şirkətinin nümayəndəsi isə "Emosional liderlik" adlı təqdimat keçirib.

Sonda qonaqların sualları spikerlər tərəfindən cavablandırılıb. Qeyd olunub ki, Azərbaycan qadını cəmiyyətimizdə hər zaman aktiv rol oynayıb, dövlət idarəçiliyində, qanunvericilik aktlarının formalaşmasında, diplomatiya aləmində, iş dünyasında, mədəniyyət sahəsində, elmdə, təhsildə, səhiyyədə və digər mühüm sahələrdə öz sözünü deyib. Bunun ən önəmli səbəblərindən biri Azərbaycanın milli-mənəvi dəyərlər sistemi və dövlət tərəfindən həyata keçirilən qadın, gender siyasətidir.

## Azərbaycan nümayəndəsi BMT-nin seminarında iştirak edib

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib ki, martın 5-6-da Minskdə Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının (UNECE) təşkilatçılığı ilə "Şərqi Avropada və Qafqazda yenilikçi, yüksək artımlı müəssisələrin təşviqi" mövzusunda seminar keçirilib.

Eyni zamanda, UNECE-nin təşkilatçılığı ilə "Şərq Tərəfdaşlığı (Eastern Partnership) ölkələri üzrə innovasiya siyasəti indeksi"nə dair əlaqələndirici şəxslərin (Focal Point) görüşü təşkil olunub.

Belarus Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının evsahibliyi etdiyi görüşdə Şərq Tərəfdaşlığı ölkələri üçün innovasiya siyasəti indeksinin əhatə etdiyi Azərbaycan da daxil olmaqla 6 dövləti təmsil edən milli əlaqələndiricilər iştirak ediblər.

Görüşdə milli əlaqələndirici qismində iştirak edən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin informasiya cəmiyyətinin və elektron idarəçiliyin innovativ inkişafı şöbəsinin müdiri Rəşad Əzizov çıxışında üzv dövlətlərdə mövcud innovasiya siyasəti, eləcə də innovasiya siyasətinin maraqlı tərəfləri kimi çıxış edən dövlət orqanları arasında koordinasiyasının qiymətləndirilməsi, innovativ ideyaların stimullaşdırılması və dəstəklənməsi sahəsində görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, "Şərq Tərəfdaşlığı" ölkələri üzrə innovasiya siyasəti indeksi" layihəsinin məqsədi Şərqi Avropa və Qafqaz ölkələrindəki innovasiya siyasətinin, innovativ institutlar və proseslərin miqyas və keyfiyyətinin qiymətləndirilməsindən ibarətdir.

## Çıxarışlar xanımların ünvanlarında təqdim olunub

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Beynəlxalq Qadınlar Günü münasibətilə əmlaklarına dair hazır çıxarışlar xanımların ünvanlarında təqdim edilib.



Bundan başqa, komitə 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə xüsusi qayğıya ehtiyacı olan xanımları, o cümlədən şəhid ailələrini, Qarabağ müharibəsi əlillərinin həyat yoldaşlarını, ahılları, fiziki məhdudiyyətli qadınları, tənha anaları fərqli üsulla təbrik edib. Belə ki, xanımlar üçün birbaşa ünvanlarda qeydiyyat xidməti ilə bağlı sosial aksiya keçirilib. Bu kampaniya çərçivəsində şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinin həyat yoldaşlarına, o cümlədən fiziki məhdudiyyətli qadınlara birbaşa olaraq yaşadıqları ünvanlarda qeydiyyat xidmətləri göstərilib. Komitənin əməkdaşları xüsusi nəqliyyat vasitələri ilə paytaxtla yanaşı, respublikanın bir neçə rayonuna gedərək yaşlı qadınlara, tənha analara evlərində cə əmlaklarına dair hazır çıxarışlar təqdim ediblər. Verilən çıxarışlar əsasən mənzilləri, fərdi yaşayış evlərini, pay torpaqlarını, həyətyanı torpaqları əhatə edib.

Bu addım xanımların dövlət tərəfindən diqqət mərkəzində olmasının, sosiallıq prinsipinin ön planda yer almasının əyani göstəricisidir. Kampaniya qeyd edilən təbəqədən olan xanımların daha rahat və optimal yolla əmlaklarını qeydiyyatdan keçirməsinə, onların məmnunluğunun təmin edilməsinə, vaxtlarına qənaət etməsinə şərait yaradıb.

Çıxarışların təqdim edilməsi ilə yanaşı, komitənin əməkdaşları xüsusi qayğıya ehtiyacı olan bir neçə qadından mülkiyyət hüququnun təmin olunması üçün lazımi sənədləri toplayıblar. Kampaniya çərçivəsində komitənin hüquqşünasları xanımlara yardımçı olublar, onların qeydiyyat prosesi və sənədlərlə bağlı suallarını cavablandırıb, sənədlərin necə əldə edilməsi, hansı qurumlara müraciət edilməsi ilə bağlı istiqamət veriblər. Qadınlar sənədləşdirmənin sürətli və rahat şəkildə aparılması, xidmətlərin birbaşa ünvanlarına çatdırılmasından razılıqlarını ifadə ediblər.

Sosial mahiyyət daşıyan belə tədbirlər mülkiyyətçi xanımların sayının artmasına, qadınların öz əmlaklarını daha aktiv şəkildə iqtisadi proseslərə cəlb etməsinə, o cümlədən qeydiyyat xidmətlərinə olan marağın artmasına imkan verir.

## Bol su bol məhsul deməkdir

Son illər ölkəmizdə aqrar sektora diqqətin daha da artması, kəndlinin torpağa bağlanması müsbət haldır. Bunu şərtləndirən ən vacib amillərdən birincisi kəndlinin dövlət dəstəyi ilə daha çox əhatə olunmasıdır. Kənd təsərrüfatında çalışanların mənfəət əldə etmələrində isə məhsuldarlıq böyük rol oynayır. Bol məhsul üçün keyfiyyətli əkin və zəruri mineral gübrə təminatı ilə yanaşı, həm də suvarma suyu ilə təchizatın olması mütləqdir. Elə ona görə bu məsələ prioritet istiqamətlərdən biri kimi gündəlikdə dayanır.



Prezident İlham Əliyevin cari il fevral ayının 12-də "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" imzaladığı sərəncam da bu zərurətdən qaynaqlanır. Sərəncamla bu il əhalisi 736 min nəfərə yaxın olan 41 şəhər və rayonun 254 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılacaq.

Ölkəmizin şimal-qərb və Dağlıq Şirvan bölgəsinin bir sıra rayonlarının su təchizatında **Şəki Subartezian Quyularının İstismarı İdarəsi**nin rolu böyükdür. İdarənin rəisi Sabir Əhmədov bildirdi ki, balanslarında 625 subartezian və 214 artezian quyusu var. Bu quyulardan 2018-ci ildə 8 min 613 hektar sahəyə 29047 kubmetr su verilib.

Keçən il həmçinin idarənin balansındakı 250 subartezian quyusunda nasos aqreqatları quraşdırılıb, 166 nasos əsaslı təmir, 84-ü cari təmir olunub. Bunlardan əlavə, Prezidentin 12 mart 2018-ci il tarixli sərəncamına əsasən, ötən il Şəkidə 13, Oğuzda 6, İsmayıllıda və Qəbələ rayonunun hərəsində 8, Balakəndə 9, Zaqatalada 12, Qax rayonunda 12 subartezian və artezian quyuları qazılıb.

Yeni sərəncama əsasən, 2019-cu ildə Şəki və Zaqatala rayonlarının hərəsində 13, Qaxda 14, Balakəndə 9, İsmayıllıda 7, Qəbələ və Oğuz rayonlarının hər birində 6 subartezian və artezian quyusu qazılacaq.

**Zaqatala Suvarma Sistemləri İdarəsi**nin rəisi Fikrət Şərifov isə dedi ki, yeni sərəncama əsasən rayonda 13 quyu qazılacaq. Rayonda 15 min 562 hektar suvarılan torpaq sahələrini suvarma suyu ilə təmin etmək üçün 4 ekskavator və 2 T-170 markalı buldozer ayrılıb. Vegetasiya suvarılmasına hazırlıqla əlaqədar kanallar lildən təmizlənib, "Alazan" nasos stansiyası hazır vəziyyətə gətirilib, suvarma kanalları üzərində olan hidrotexniki qurğular yenisi ilə əvəz olunub.

Zaqatala sel sularının təsirinə ən çox məruz qalan rayonlardandır. Rayon ərazisindən Katex, Tala, Muxax, Alazan, Bəkməz çayları axır. Tədbirlər planına uyğun olaraq həmin çaylarda yarana biləcək təhlükələrin qarşısını almaq üçün çayların yataqları təmizlənib, Muxaxçayda dəmir beton bəndlər təmir edilib. Hazırda Bəkməz, Tala, Muxax çaylarında yataqlar təmizlənir, sel sularından mühafizə məqsədilə dövlət vəsaiti hesabına Silbançayın sol sahilində daş-beton bənd tikilir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# REGİONLAR



# Dövlət dəstəyi nəticəsiz qalmır

**Respublikamızın ən ucqar bölgələrinin ən ucqar kəndində belə, müsbət dəyişikliklər istənilən qədərdir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası çərçivəsində əhalinin məşğulluq problemlərinin həllindən tutmuş infrastruktur layihələrinədək bütün istiqamətlərdə çoxsaylı tədbirlər həyata keçirilmişdir. Bu işlərdən əsasən aqrar və turizm rayonu kimi tanınan Oğuz da kənarda qalmayıb.**



Rayon icra hakimiyyəti başçısının müavini - sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Etibar Yusubov bildirdi ki, 3-cü regional inkişaf proqramında Oğuz üzrə nəzərdə tutulan bütün layihələr reallaşdırılmışdır. Heyvandarlıq sahəsində, payızlıq, yazlıq dən və dənli paxlalı bitkilərin istehsalında dinamik artım olub.

2018-ci ilin məhsulu üçün 16395 hektar sahədə payızlıq taxıl, o cümlədən 11830 hektar buğda, 4565 hektar arpa yetişdirilmişdir. Payızlıq taxıl sahələrinin hər hektarından orta hesabla 30,4 sentner olmaqla 49775 ton taxıl götürülmüşdür. Əkin sahələrinin həcmində azalma baş verməsinə baxmayaraq məhsuldarlıq artıb.

Yol infrastrukturunun yenidən qurulması və tikinti işləri də diqqətdə saxlanılıb. III regional inkişaf proqramı çərçivəsində Padar-Böyük Söyüdlü yolu qaydaya salınıb. Sincan-Xaçmaz-Filfili avtomobil yoluna birinci qat asfalt örtüyü vurulub. 2016-cı ildə bu yolun tikintisinin davam etdirilməsi üçün dövlət başçısının sərəncamı ilə 1,5 milyon manat vəsait ayrılıb. Həmin vəsait hesabına 2017-ci ildə yolda cari təmir işləri aparılıb, yol kənarlarına dayanacaqlar qoyulub. 2018-ci ildə isə Bucaq-Muxas-Baş Daşağıl və Oğuz-Xaldan avtomobil yollarına asfalt döşənib.

Rayonun 34 yaşayış məntəqəsindən 26-sı təbii qazla təmin olunub. Yaqublu, Yenikənd, Zərrab, Top, Kərimli, Qumlaq, Tayıflı, Şirvanlı kəndlərində yeraltı qaz xətləri yenilənib.

Oğuz şəhərində, Kərimli, Xaçmaz, Mollalı, Bayan, Baş Daşağıl, Muxas, Tayıflı, Qumlaq, Hallavar, Xalxal və Sincan kəndlərində transformatorlar quraşdırılıb. Yüksək gərginlikli 58 elektrik dirəkləri yeniləri ilə əvəz edilib.

Keçən il Oğuz poçt filialının Baş Daşağıl, Muxas, Xalxal, Böyük Söyüdlü, Qarabulaq şöbələri mobil şəbəkəyə qoşulub. Xalxal, Xaçmazqışlaq, Ərmənət, Qarabulaq, Calut və Böyük Söyüdlü kəndlərinə yüksək sürətli internet verilib. Böyük Söyüdlü, Qarabulaq, Calut kəndlərinə internet verilişi ilə əlaqədar 30 kilometr optik kabel çəkilib.

Reallaşdırılan layihələr sırasında səhiyyə, mədəniyyət, idman və təhsil müəssisələrinin inşası və yenidən qurulması da qeyd edilməlidir. 2015-ci ildə Yaqublu kəndində 220 şagirdlik yeni məktəb binası istifadəyə verilib, Kərimli kənd körpələr evi-uşaq bağçası təmir olunub.

2015-ci ilin sentyabr ayında baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması üçün də sonrakı dövrdə çox iş görülüb. Atraxanovka məktəbi Padar və Yenikənd kənd körpələr evi-uşaq bağçaları əsaslı təmir edilib. Yemişanlı, Xalxal qışlaq və Qarabaldır kəndlərində yeni modul tipli məktəblər quraşdırılıb. Bütün bunların əksəri dövlətin maddi vəsaiti və dəstəyi sayəsində araya-ərsəyə gəlib.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması diqqətdədir

**Yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, hərbi xidmətə mənəvi-psixoloji cəhətdən hazırlıqları, çağırışaqədərki məşğələlərin keyfiyyətli tədrisi və digər məsələlər Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zaqatala rayon şöbəsinin daim diqqətindədir.**

Cari dərs ilində rayonun orta ümumtəhsil məktəblərində çağırışaqədərki hazırlıq üzrə beşgünlük tədris toplamı və metodiki məşğələlər yüksək səviyyədə keçirilib. Məşğələlərdə SHXÇDX-nin Zaqatala rayon şöbəsinin hərbi qulluqçularının məruzə və mühazirələri dinlənilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zaqatala rayon şöbəsinin rəisi, polkovnik-leytenant Mətləb Murğuzov bildirdi ki, xidmətin əməkdaşları mütəmadi olaraq məktəblərə gedir və tədrisin daha səmərəli keçirilməsi üçün müvafiq tövsiyələr verilir. İl ərzində çağırışaqədərki hazırlıq fənn rəhbərləri ilə sıra, ictimai-siyasi, taktiki, eləcə də atıcılıq və topoqrafiya hazırlığının yüksəldilməsi və hərbi nizamnamənin öyrənilməsi istiqamətində məşğələlər keçirilir. Şagirdlər hərbi hissələrin ərazisində məişət qaydaları ilə yaxından tanış olurlar.

Gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi üçün onların müharibə veteranları və ehtiyatda olan zabitlərlə görüşləri keçirilir. Gənclər arasında sağlam həyat tərzinin təbliğ edilməsi istiqamətində, habelə narkomaniya, alkoqol və digər psixotrop maddələrin ziyanı barədə diskussiyalar təşkil olunur.

İl ərzində rayon təhsil şöbəsi ilə birlikdə "Şahinlər" hərbi-idman oyunları və müxtəlif idman yarışları keçirilib. Oyunlarda fərqlənmiş Çobankol kənd tam orta məktəbi, Zaqatala şəhər 1 nömrəli tam orta məktəbi və Əliabad qəsəbə 1 saylı tam orta məktəbin komandaları fəxri fərman və hədiyyələrlə mükafatlandırılıblar. Çobankol kənd tam orta məktəbinin komandası Gəncə şəhərində keçirilən zona yarışlarında ön yerlərdən birini tutub.



Artıq 2002-ci il təvəllüdlü gənclərin ilkin hərbi qeydiyyata alınması başa çatıb. Hazırda 2003 və 2004-cü il təvəllüdlü vətəndaşların ilkin hərbi qeydiyyata alınması üçün hazırlıq işləri aparılır. Rayonun inzibati ərazi dairələrindən, mənzil istismar sahələrindən və ümumtəhsil müəssisələrindən çağırış yaşlı gənclərin siyahıları əldə olunub. Tədbirlər planı hazırlanaraq Zaqatala Rayon İcra Hakimiyyətinə təqdim olunub.

## Fermerlər yüksək məhsuldar kartof toxumları ilə təmin olunur

Dövlət Toxum Fondu fermerlərin yüksək məhsuldar toxumlarla təmin olunması üçün davamlı iş aparır. Fond bu məqsədlə Rusiya Federasiyasından 38 ton "Udaça" sortlu, birinci reproduksiyalı kartof toxumunun idxalını həyata keçirib.

Yüksək məhsuldar, ölkənin iqlim şəraitinə uyğun və vegetasiya dövrü qısa olan bu toxumlar kartofçuluq üzrə inkişaf etmiş Cəlilabad, Qazax və Gədəbəy rayonlarında fəaliyyət göstərən torpaq mülkiyyətçilərinə təqdim olunub.

Təqdim olunan toxumların müşayiətedici sənədləri və toxumluq olması barədə sertifikatları var. Bu da onların əkin keyfiyyətinin yüksək olması ilə yanaşı, gələcəkdə toxumçular tərəfindən istehsal ediləcək məhsulun toxum kimi istifadəsinə imkan yaradacaq.

## Zərdabda heyvan kəsimi məntəqəsi istifadəyə verilib

Zərdab şəhərində yeni tikilən heyvan kəsim məntəqəsi istifadəyə verilib. Smeta dəyəri 75 min manat olan kəsim məntəqəsi baytarlıq-sanitariya-gigiyena tələblərinə tam cavab verir.

Məntəqə sahəsi 108 kvadratmetr olan heyvan kəsimi otağından, ən müasir aparat və avadanlıqlarla təchiz edilən laboratoriyadan, hər birinin sahəsi 14,4 kvadratmetr olan 6 ət satışı otağından ibarətdir. Kəsim məntəqəsi fasiləsiz su ilə təmin edilib. Habelə ərazidə 40 kubmetrlik yeraltı çirkab quyusu tikilib. Sanitar qaydalara uyğun olaraq çirkab suların dezinfeksiya olunması və daşınması nəzərdə tutulub.

Yeni obyektin açılışında iştirak edən rayon icra hakimiyyətinin başçısı Lütvəli Babayev çıxışında bildirib ki, kəsim məntəqəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" 2018-ci il 11 iyun tarixli sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədar bölgədə görülən işlərin nəticəsidir. Vurğulanıb ki, qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması, istehlakçıların hüquqlarının müdafiəsi kimi məsələlər bundan sonra da daim diqqət mərkəzində olacaq.

Sonda iştirakçılar kəsim məntəqəsində yaradılan şəraitlə tanış olublar.

## Bölgələrdə yeni hotellər tikilir

Respublikamızın ayrı-ayrı bölgələrində olduğu kimi, Gəncə şəhərində də qeyri-neft sektorunun vacib sahələrindən olan turizmin inkişafı məqsədilə müasir infrastrukturun, hotellərin və istirahət-əyləncə mərkəzlərinin yaradılması işləri həyata keçirilir. Hazırda Gəncə şəhərində 5, onun inzibati ərazisinə daxil olan Hacıkənd qəsəbəsində isə 1 yeni hotel tikilir.



Şəhərin mərkəzində Heydər Əliyev prospekti ilə Cavad xan küçəsinin kəsişməsində inşa edilən və ümumi sahəsi 5 min 586 kvadratmetr olan "Majestic Palace" mehmanxanasının daxilində hazırda son tamamlama işləri görülür.

Həmçinin şəhərin mərkəzində, Nağı bəy Şeyxzamanlı küçəsində inşa edilən və ümumi sahəsi 2 min 500 kvadratmetr olan, 8 mərtəbəli "Hotel Univermaq"da, eləcə də Nizami Gəncəvi prospektindəki 8 mərtəbəli və 4 mərtəbəli hotellərin də binasında tikinti işləri yekunlaşıb.

Eyni zamanda, şəhərin Şah İsmayıl Xətai prospektində 4 mərtəbəli, Zərifə Əliyeva prospektində isə 2 mərtəbəli mehmanxanalar da inşa edilir.

Hacıkənd qəsəbəsində tikilən 7 mərtəbəli ARFA mehmanxanasının daxilində də son tamamlama işləri görülür. Bildirək ki, ARFA mehmanxanasının istifadəyə verilməsi Hacıkənd və Göygöldə qış turizminin inkişafına töhfə olacaq.

# İnkişaf davam edir





**Ölkəmizdə həyata keçirilən infrastruktur layihələri, aparılan abadlıq-quruculuq işləri, yaradılan minlərlə yeni müəssisələr regionların potensial imkanlarını üzə çıxarmaqla bərabər, əhalinin həyat səviyyəsində öz əksini tapmışdır. Bunu Qazax rayonunun timsalında da görmək olar.**





Əvvəlki illərdə olduğu kimi, keçən il də rayonda iqtisadiyyatın bütün sahələri üzrə çoxsaylı uğurlar əldə edilmişdir. Taxılçılar orta hesabla hər hektarın məhsuldarlığını 36,6 sentnerə çatdıraraq 33300 tondan çox məhsul istehsal etmişlər. Digər sahələrdən 168,3 ton vələmir, 2,4 ton darı, 519,4 ton noxud, 87 ton lobya, 3038,4 ton qarğıdalı, 176 ton sorqo, 30745 ton kartof yığılmışdır. Meyvəçilikdə də yüksək məhsuldarlığa nail olunmuş, bağlardan 15837,8 ton meyvə dərilmişdir.

Ənənəvi sahə sayılan tütünçülük inkişaf etdirilmiş, tədarük məntəqələrinə 99 tona yaxın məhsul təhvil verilmişdir. 2016-cı ildə 1502 kiloqram, 2017-ci ildə 4623 kiloqram barama istehsal edən kümçülər keçən il bu rəqəmi 6262 kiloqrama çatdırmışlar. İqtisadi cəhətdən gəlirli olan bu sahənin daha da inkişafı üçün hazırda yeni tut bağları salınır.

Dövlətin dəstəyi sayəsində rayonda arı ailələrinin sayı da xeyli artırılmışdır. Hazırda rayonda 7 mindən artıq arı ailəsi var. Ölkə rəhbərinin arıçılığın stimullaşdırılması ilə bağlı imzaladığı sərəncama uyğun olaraq 244 arıçıya 36 min manat subsidiya verilmişdir. Bundan əlavə, keçən il barama istehsalçılarına 30142 manat, tütün istesalçılarına 3990 manat, çuğundur istehsalçılarına 21549 manat subsidiya ödənilmişdir.

Həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində rayonda həm mal-qaranın sayı, həm də ət və süd istehsalı xeyli artmışdır. Mal-qaranın cins tərkibini yaxşılaşdırmaq üçün süni mayalanma yolu ilə 233 bala alınmışdır.

Kənd təsərrüfatı məhsullarının artırılmasında suvarma böyük əhəmiyyət daşıdığı üçün bu məsələ daim diqqətdə saxlanılır. Qazax Suvarma Sistemləri İdarəsi 17421 hektar kənd təsərrüfatına yararlı torpaq sahələrinin suvarılmasına xidmət edir. Əkin sahələrinin vaxtında suvarılması üçün əsas diqqət suvarma şəbəkələrinin tullantılardan təmizlənməsinə yönəldilmişdir.

Əhalinin içməli su təminatını yaxşılaşdırmaq üçün də xeyli iş görülmüşdür. Düşmənlə təmas xəttində yerləşən Kəmərli kəndində subartezian quyusu qazılmış, 1276 metr su xətti çəkilərək 300 ailənin içməli su problemi həll edilmişdir. Aslanbəyli və Qaymaqlı kəndlərində subartezian quyusu istifadəyə verilmişdir. Ağköynək və Qarapapaq kəndlərində 1730 metr uzunluğunda yeni su xətti çəkilmişdir.

Yol infrastrukturunda aparılan yenidənqurma işlərini də kənd və qəsəbə sakinləri rəğbətlə qarşılayırlar. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, son 3 ildə rayonda 7 kəndin yolu təzələnmişdir. Bu da əhalinin rahat gediş-gəlişini təmin etməklə bərabər, kənd təsərrüfatı məhsullarının bazarlara daşınmasını xeyli asanlaşdırmışdır. Cəfərli avtomobil yolunun tikintisi başa çatdıqdan sonra Daşsalahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun qurulmasına başlanmışdır. Bu yol istifadəyə verildikdən sonra ərazidə yaşayan 13673 nəfər əhalinin gediş-gəlişi də xeyli asanlaşacaqdır.

Ümumtəhsil məktəblərinin yenilənməsində də bir sıra işlər görülmüşdür. Qazax şəhər 2 nömrəli tam orta, Ağköynək, Xanlıqlar, Daş Salahlı kənd 1 nömrəli orta məktəblərdə və Mehdi Hüseyn adına məktəb-liseydə təmir işləri aparılmışdır.

Əhalinin çoxsaylı müraciətləri nəzərə alınaraq Qazax şəhər 4 saylı uşaq bağçasında əlavə 3 qrup, 5 saylı körpələr evi-uşaq bağçasında əlavə 2 qrup, 6 saylı körpələr evi-uşaq bağçasında əlavə 1 qrup açılmış və həmin qruplar üçün yeni korpuslar inşa edilmişdir.

Ancaq qazanılan uğurlar qazaxlıları arxayınlaşdırmır. Onlar regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında qarşıya qoyulan vəzifələri də uğurla yerinə yetirmək əzmi ilə qurub-yaradırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən hər il olduğu kimi, bu il də ölkə vətəndaşlarının kütləvi pulsuz tibbi müayinələrə cəlb olunması Lənkəran rayonunda mütəşəkkil qaydada davam edir.

## Lənkəranda humanitar aksiyadan 162 mindən çox sakin yararlanacaq

Lənkəran Rayon Mərkəzi Xəstəxanasının baş həkiminin müavini Əbülfət Məmmədov AZƏRTAC-a bildirib ki, humanitar aksiya ilə əlaqədar rayonun iki böyük səhiyyə ocağında - Rayon Mərkəzi Xəstəxanasında və Müalicə-Diaqnostika Mərkəzində yüksəkixtisaslı və təcrübəli həkimlər sakinlərin tibbi müayinələrini aparırlar.

Humanitar aksiyaya start verildiyi gündən - fevralın 12-dən səhiyyə müəssisələrinin terapevt, oftalmoloq, otolorinqoloq, ginekoloq, cərrah, nevropatoloq və dermatoloqlardan ibarət həkim briqadaları qrafikə uyğun olaraq hər gün səhər saat 9-dan 16:00-dək rayon mərkəzindən uzaq yaşayış məntəqələrində sakinlərin tibbi müayinələrini həyata keçirirlər.



Əbülfət Məmmədov qeyd edib ki, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların kollektivlərinin müayinə olunmaları üçün qrafikə uyğun müəyyən günlər nəzərdə tutulsa da, sakinlər üçün hər hansı bir gün məhdudiyyəti yoxdur. İstənilən vətəndaş müayinələrin keçirildiyi tibb müəssisəsinə gələrək bu xidmətdən yararlana bilər.

Tibbi müayinə ilə əlaqədar müraciət edənlər ilk olaraq xəstəxananın poliklinika şöbəsində peşəkar həkimlər tərəfindən dinlənildikdən sonra müayinədən keçirilir. Ehtiyac yarandığı təqdirdə vətəndaş müalicə üçün xüsusi göndərişlə müvafiq səhiyyə müəssisəsinə göndərilir.

Aksiya başlanan gündən qısa müddət ərzində Lənkəran rayonunda 42 min nəfərə yaxın sakin tibbi müayinədən keçib. 3789 nəfər ambulator, 208 nəfər stasionar müalicəyə cəlb olunub. Xəstələrdən 17 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılıb, 31 nəfər isə müalicə üçün Bakı şəhərindəki tibb müəssisələrinə göndərilib.

Rayon sakinləri humanitar aksiyanın yüksək səviyyədə təşkilindən razılıqlarını ifadə edərək, onların sağlamlığının qayğısına qalan dövlət başçısına minnətdarlıqlarını bildirirlər.

Qeyd edək ki, humanitar aksiyadan Lənkəran rayonunda yaşı 18-dən yuxarı olan 162 min 704 nəfər yararlanacaq.

## Keçən il Gəncə idmançıları beynəlxalq yarışlarda 47 medal qazanıblar

2018-ci ildə Gəncə şəhərinin idman həyatı üçün ən uğurlu illərdən biri olub. Ötən il ərzində Gəncədə idmanın müxtəlif növləri üzrə 53 şəhər yarışı keçirilib ki, bu yarışlarda 9000-dən çox idmançı iştirak edib.

Ötən il 412 nəfərə yaxın idmançı 30 respublika yarışlarında iştirak edib. Nəticədə, 64 nəfər birinci, 52 nəfər ikinci, 51 nəfər isə üçüncü yerə layiq görülüb. Eyni zamanda idmançılardan 100 nəfər 5 Beynəlxalq, 8 Avropa, 7 Dünya yarışlarında və bir yeniyetmələrin Yay Olimpiya oyunlarında iştirak etməklə, ümumilikdə 47 medal qazanıblar. Bunlardan 20-si qızıl, 5-i gümüş, 22-si isə bürünc medal olub.

# 10 mart Milli Teatr Günüdür

## Musiqinin akademik məqamı

**Sakitlikdir, ətraf qaranlıq, dəhlizlər kimsəsiz...**
**Sanki labirintdəyik...**
**Qarşıda bizi nələrin gözlədiyini, hansı situasiyalarla qarşılaşacağımızı bilmirik...**
**Bir-birimizə tutuna-tutuna irəliləyirik...**
**Və...**
**Qəfildən naməlum istiqamətə yol alan bir avtobusun içərisində olduğumuzun fərqinə varırıq...**
**Axı, bu necə ola bilərdi? Biz ki, bir binanın qaranlıq dəhlizləri ilə irəliləyirdik, necə oldu ki, birdən-birə avtobusa düşdük?**
**Ətrafa baxırıq, yenicə gördüyümüz sərnişinlər də çaş-başlıq içərisindədirlər...**
**Elə indi duyuq düşüblər ki, naməlum istiqamətə gedən bu avtobusu idarə edən sərxoş bir sürücünün iradəsindən asılı vəziyyətdədirlər...**
**Bəlli olmayan ünvana, məqsədi və məramı aydın olmayan sürücü ilə eyni avtobusda, eyni taleni yaşamağa məhkum olan sərnişinlər həyatın bu sürprizinə müqavimət göstərirlər...**
**Və elə bu ekstremal vəziyyətdə çarəsiz sərnişinlərin hər birinin əsl məni ortaya çıxır...**





### "Yolçuluq", "Sərxoş gecə", "Çıxış yolu"

10 mart - Milli Teatr Günü ərəfəsində yolumuzu Azərbaycan Dövlət Musiqili Teatrından saldıq.

Teatrın 4-cü mərtəbəsində, bolqar yazıçısı Stanislav Stratiyevin "Avtobus" pyesi əsasında "Çarəsiz sərnişinlər" tamaşasının stolarxası məşq prosesini izləyirik...

Xalq artisti Pərviz Məmmədrzayev (virtuoz), əməkdar artistlər Əzizağa Əzizov (kəndçi), Ələkbər Əliyev (ağılsız), Şövqi Hüseynov (ağıllı), Əkbər Əlizadə (məsuliyyətsiz), aktyorlar Əliməmməd Novruzov (ər), Ülviyyə Əliyeva (arvad), Aydan Həsənova (qız), Nicat Həbibov (oğlan) hər biri öz rolları barədə danışır, müzakirə aparırlar.

Tamaşanın quruluşçu rejissoru əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə məlumat verir ki, tamaşa alleqorik, eksentrik musiqili komediyadır: "Musiqi heç də müşayiət deyil, həm də yeri gələndə monoloq ifadəsinə çevrilə biləcək formadadır. Tamaşa 3 hissədən ibarət olacaq, "Yolçuluq", "Sərxoş gecə", "Çıxış yolu". Tamaşa insan kimlikləri üzərində qurulub. Burada bir neçə mesaj verilir. İstənilən şəraitdə insan kimliyi qorunmalıdır. Fərdi yox, ümumi xilaslar naminə çalışmaq lazımdır. Çarəsizliyin sonu uçurumdur. İnsan elə şeyləri itirməlidir ki, qazandıqları ona dəysin. Yaxud elə şeylər itirməlidir ki, ona görə peşman olmasın".

Teatr məbədgah, həyat məktəbidir. Ağlayan, gülən, qəhərlənən, şadlanan tamaşaçının müqəddəs ünvanıdır. İnsan mənəviyyatının zənginləşməsinə ən böyük töhfə verən incəsənətdir. Mütləq ki, səhnəyə qoyulan bütün tamaşaların insanlığa ötürdüyü dəyərli bir mesaj var...

### Zəngin teatr ənənəsi

Azərbaycan teatrının da zəngin ənənəsi var və artıq bu il yaranmasının 146-cı ildönümünü qeyd edir.

1883-cü ildə Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü ilə Bakıda ilk teatr binası tikilib. 1922-ci ildən binada Akademik Milli Dram Teatrı, 1960-cı ildən isə Azərbaycan Dövlət Musiqili Teatrı fəaliyyət göstərib. 1988-ci ildə uçmaq təhlükəsi olduğuna görə həmin bina sökülüb və yeni bina inşa olunub.

Azərbaycanda milli musiqili komediya janrının yaradıcısı isə dahi bəstəkar Üzeyir bəy Hacıbəyli olmuşdur. Onun 1909-cu ildə yazdığı "Ər və arvad" musiqili komediyasının ilk tamaşası 24 may 1910-cu ildə Bakıda, Nikitin qardaşlarının sirk binasında göstərilmişdir. Məhz bu tamaşa ilə də Azərbaycan Musiqili Komediya Teatrı təşəkkül tapmışdır. Sonrakı illərdə Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun", "Arşın mal alan" (1913) musiqili komediyaları oynanılmışdır.

1938-ci ilə qədər musiqili komediyalar Azərbaycan Opera və Balet Teatrında oynanılırdı. 1938-ci ildə müstəqil Musiqili Komediya Teatrı (Azərbaycan və rus bölmələri ilə) təşkil edildi və teatr 1938-ci ilin sentyabr ayından rəsmi olaraq Azərbaycan Dövlət Musiqili Komediya Teatrı statusu aldı.

1985-90-cı illərdə respublikada baş verən ictimai-siyasi hadisələr, Qarabağ müharibəsi burada çalışan sənət adamlarının yaradıcılığına mənfi təsir göstərdi. Uzun illik təmir işləri kollektivdə təəssüf ki, bir süstlük yaratdı. Lakin 1993-ci ildə ulu öndər Heydər Əliyevin göstərişi ilə binada təmir və bərpa işlərinə yenidən başlanıldı. Sənət və sənət adamlarına xüsusi diqqət və qayğı göstərən Heydər Əliyev 1995-ci ildə təmir və bərpa işləri ilə yaxından tanış oldu, öz dəyərli tövsiyələrini verdi.

1998-ci il oktyabr ayının 10-da isə böyük sənət məbədinin açılışında iştirak etdi. Bu, teatrın yenidən inkişaf etməsinə böyük təkan verdi. Kollektiv bir-birinin ardınca yeni-yeni tamaşalar hazırlayaraq repertuarı zənginləşdirməyə başladı.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrının binası 2011-2013-cü illərdə yenidən təmir olunub istifadəyə verildi.

2013-cü ildə isə Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan Dövlət Musiqili Komediya Teatrı Azərbaycan Dövlət Musiqili Teatrı adlandırıldı.

Hazırda teatrda 460 yerlik zal ən müasir avadanlıqla təchiz olunub. Oturacaqlar və mebel yeniləri ilə əvəzlənib, 360 dərəcə fırlanan səhnə tamamilə yenidən qurulub. Burada ən müasir səs-akustika sistemi quraşdırılıb. Səhnənin işıq sistemləri də müasir layihə və texnologiyalar əsasında yenilənib. Binanın bütün xidməti və qrim otaqlarında əsaslı təmir işləri aparılıb. Yenilənmiş havalandırma sistemi ən müasir standartlara uyğundur. Əsaslı bərpa işlərindən sonra teatrdakı səsyazma studiyası və kiçik tamaşa zalı da yeni görkəm alıb.















### Son: üç, iki, bir, başladıq...

Elə ilk andan teatrın ab-havasını duymağa başlayırıq. Əksəriyyətini ekranlardan tanıdığımız məşhur aktyorlarla dəhlizlərlə irəlilədikcə, hər mərtəbəyə qalxdıqca yeni bir aləmlə rastlaşırıq. Yenicə qurulmuş və məşqinə hazırlaşılan bir tamaşanın səhnəsindəyik. Gözəl əl işləri ilə hazırlanmış dekor kötüklər, gül-çiçəklər, qızıl açar...

Budur, haradansa qaranlıqdan rejissorun səsi eşidilir.

- Son: üç, iki, bir, başladıq...

Səhnə işıqlanır və musiqi sədaları altında tənha qoca Karlo kiçik daxmasında oduncaqdan insan fiquru düzəldir...

Taq-taq-taq... Birdən hazırladığı taxta əşya canlanır və hərəkətə gələrək uzun burunlu şən və dəcəl Buratinoya çevrilir... Şıltaq, inadkar, bu qeyri-adi taxta oğlan atası hesab etdiyi Karlonu çox sevsə də, nəzakət qaydalarından çox uzaq, tənbəl, dərs oxumağı sevməyən biridir. Yaxşı cəhətləri isə sadiq dost olmağı bacarmağı və macəra dolu təhlükəli anlarda meydana cəsur igid kimi atılmağıdır...



Özümüzü nağıl aləmində hiss edirik və anidən rejissorun kəsdik, ara veririk anonsu ilə sehrli aləmdən ayrılırıq...

### Xoşbəxt teatr

Görkəmli rus yazıçısı Aleksey Tolstoyun 1936-cı ildə qələmə aldığı "Qızıl açar və yaxud Buratinonun macəraları" povesti əsasında hazırlanan "Buratino" nağıl-tamaşası yaradıcı gənclərə dəstək məqsədilə səhnəyə qoyulur. Tamaşanın bədii rəhbəri sənət ocağının direktoru, əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir. Dünyanın bir çox teatr məkanlarında tamaşaçılara müxtəlif versiyalarda göstərilən odunca adam - Buratino haqqında rəvayətlər bu dəfə musiqili teatrın gənc rejissoru Elməddin Dadaşovun quruluşunda və fərqli şəkildə təqdim olunur.

Fürsəti fövtə verməyib rejissorla danışırıq. Elməddin Dadaşov deyir ki, 2005-ci ildə böyük gülüş ustası Hacıbaba Bağırovun özəl dəvəti ilə Azərbaycan Dövlət Musiqili Teatrına gəlib: "Artıq 14 ildir ki, bu teatrla nəfəs alıram. Bir çox tamaşalarda ikinci rejissoram. Elə tamaşalar da var ki, onlarda aktyor kimi də iştirak edirəm".

Rejissor məlumat verir ki, "Buratino" filmində səslənən mahnılar ilk dəfə olaraq öz doğma dilimizdə səslənəcək: "Tamaşada maraqlı tendensiya üzə çıxartdım. Elə aktyorlarımız var idi ki, onlar uşaq tamaşaları ilə məşğul deyildilər. Artistlər Səmayə Musayeva, Nahidə Orucova, Möylə Mirzəliyev, Ağaxan Şərifovu gətirib gənc nəsillə bərabər tamaşada rollar verdim. Bu, təbii ki, onlar üçün də maraqlı oldu".

Elməddin Dadaşov onu da vurğuladı ki, musiqili teatr heç zaman tamaşaçı qıtlığından əziyyət çəkmir: "Xoşbəxt teatrlardanıq ki, bizə tamaşaçı axını çoxdur. Burada həm də zövq müxtəlifliyi var. Tamaşaçı seçim edir, bu gün gəlib macar bəstəkarı İmr Kalmanın, sabah Əli Səmədlinin əsərinə, digər gün isə Antuan de Sent- Ekzüperinin uşaq tamaşasına baxır".

Buratinonun ifaçısı gənc aktyor Zaur Əliyevlə həmsöhbət oluruq. İncəsənət Universitetinin musiqili teatr rejissorluğunu bitirən Zaur Əliyev 2013-cü ildən bu teatrda işləyir: "Əvvəlcə texniki heyətdə işıqçı, sonra işıq rəssamı oldum. Daha sonra direktor Əliqismət Lalayev diplom işimi bəyəndi və təklif verdi ki, tamaşa hazırlayım. Mən "Peter Pen" tamaşasını hazırladım. Həmçinin tamaşalarda aktyor kimi çıxış edirəm. Çalışıram ki, oynadığım bütün rolların obrazını olduğu kimi tamaşaçıya çatdıra bilim".

### Canım, qanım, dünyaya baxan gözlərim - TEATR

"Mən bu sənətə həqiqi istəklə, körpəlikdən vurğun olub gəlmişəm. Müəllim də ola bilərdim, amma teatra sevgim məni İncəsənət İnstitutuna gətirdi. Teatr mənə canım, qanım, dünyaya baxan gözlərim kimidir. Teatrın hər şeyi, adicə tozu da mənə çox əzizdir".

Bayaqdan səhnədə heyranlıqla izlədiyimiz 74 yaşlı əməkdar artist Səmayə Musayeva fikirlərini bölüşür: "46 ildir ki, musiqili teatrın səhnəsindəyəm. İnstitutu bitirən kimi bu tetra işə gəlmişəm və buradan da heç yana getməmişəm. Məni bura çox şey bağlayır. İlk növbədə, sənətim və peşəkar aktyorlar. O zaman aktrisa Şəfiqə Qasımova var idi. Bax, onun səsi məni bu teatra bağladı. Şəfiqə xanımda bir səs var idi ki, mənə elə gəlirdi ki, sanki o oxuyanda divarlar titrəyir".

Səmayə xanım deyir ki, çox əziyyətlər çəksə də, teatra olan istəyim soyumur: "Bələkdəki övladımı qucağıma alıb onunla birgə instituta gedirdim. Müəllimlərin yazığı gəlirdi mənə, deyirdilər ki, səndə bu necə oxumaq həvəsidir...

Oğlum 20 Yanvarda şəhid oldu. Onda 44 yaşım var idi. Təsəvvür edin ki, məni göydə Allah, yerdə teatr yaşatdı. Bu sənətim olmasaydı, Allah bilir nə olacaqdı..."

"Teatrda işləyənlər sənət fədailəridir" deyir aktyor Möylə Mirzəliyev: "34 illik zəhmətim var bu sənətdə. Bu sənəti birinci növbədə sevmək, onun xəstəsi olmaq lazımdır. Nə qədər qayğılarımız da olsa, bu sənəti sevirik. Fədaiyik".

### Müjdə

Fasilə bitir və aktyorlar yenidən səhnəyə çıxırlar...

Artıq Buratino qızıl açarla qapını açaraq sehrli dünyaya daxil olmaq istəyir...

Bu zaman gözlənilmədən səhnəyə çıxan teatrın direktoru Əliqismət Lalayev işarə edir ki, vacib bir məsələ ilə bağlı məşqlərə ara verilsin: "Sevincimin həddi-hüdudu yoxdur... Elə indi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına "akademik" statusu verilməsi haqqında sərəncam imzaladı..."

Aktyorlar tərəfindən qopan sevinc nidaları, alqış sədaları Əliqismət müəllimin sözlərini yarımçıq kəsir...

Artıq Akademik status alan musiqili teatrın kollektivini sevindirən isə nə ad, nə şöhrət idi...

Onları sadəcə, sənətə verilən dəyər, əziyyətlərinin qiyməti duyğulandırır, ürəklərində fərəh hissi oyadırdı...

### "Heç bir ölkədə incəsənət adamlarına bu qədər qayğı göstərilmir"

Əliqismət müəllim teatra verilən bu yüksək dəyərlə bağlı sevinc hisslərini bizimlə bölüşür: "Azərbaycan teatrlarının fəaliyyətinə dövlət qayğısını bir daha təsdiq edən bu rəsmi sənəd qəlbimizdə fərəh hissi doğurdu. Cənab Prezidentin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər bir azərbaycanlı ailəsinin güzəranını daha xoş, sabahını daha gözəl və xoşbəxt etmək naminə yürütdüyü uğurlu siyasət Azərbaycanın böyük inkişaf yolu keçməsinə, ölkəmizin bütün sahələrinin, o cümlədən mədəniyyət və incəsənətinin ildənilə inkişaf etməsinə səbəb olub. Son illər ərzində respublikamızın hər bir teatrında olduğu kimi, Azərbaycan Dövlət Musiqili Teatrında da çox böyük işlər görülüb, uğurlu nəticələr əldə edilib. Məhz Prezident İlham Əliyevin diqqət və qayğısı, o cümlədən bilavasitə rəhbərliyi sayəsində teatrımızda təmir, yenidənqurma və bərpa işləri aparılıb. Şübhəsiz ki, teatr binasının təmiri və demək olar ki, yenidən qurulması yeni məkanda daha böyük yaradıcılıq işlərinin aparılmasına xidmət etdi".

"Mənə elə gəlir ki, dünyanın heç bir ölkəsində incəsənət adamlarına bu qədər qayğı göstərilmir" - söyləyən Əliqismət Lalayev deyir ki, qürur duyuruq ki, ulu öndər Heydər Əliyevin incəsənət xadimlərinə böyük qayğısı bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Azərbaycan sənətçisinin, Azərbaycan ziyalısının böyük xoşbəxtliyi də elə bundadır. Buna görə də biz incəsənət adamları, teatr ictimaiyyəti cənab Prezidentin etimadını doğrultmağa çalışırıq".

### Tamaşaçı alqışı

Dövlət başçısı martın 4-də sərəncam imzalayaraq Prezidentin Ehtiyat Fondundan bu teatra 200 min manat ayırdı.

Bir müddət öncə isə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva mədəniyyət və incəsənət xadimləri ilə görüşdü. Dövlət başçısı görüşdə teatr işçilərinin əməkhaqlarının azlığı ilə əlaqədar qaldırılan məsələni nəzarətə götürərək bununla bağlı təkliflər hazırlanmasına və əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılmasına dair tapşırıq da vermişdi.

Bayram əhval-ruhiyyəsində olan bu sənət ocağını xoş təəssüratlarla tərk edirik...

Əminik ki, əsrlər keçsə də, tamaşaçılarımız incəsənətimizin bir qolu olan teatrdan, teatrlarımız da tamaşaçı alqışından heç vaxt məhrum olmayacaq...

***Yasəmən MUSAYEVA,***
***Ağəali MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

## Tarixi qədim səhnə sənəti

*Mart həm də bəşəriyyətdə teatrsevərlərin bayram ayıdır*

Milli-mənəvi sərvətlərimizdən sayılan folklor nümunələrinin yaşının minilliklərlə ölçülməsi heç də təsadüfi deyil. Xalq xeyir-şərlə bağlı adət-ənənələrini məhz özünün mədəniyyət nümunələri sayılan sənətlərdə yaşadıb.

Teatrın tarixi, əlbəttə, peşəkar səhnənin yaranması ilə ölçülə bilməz. Xalq teatrlarından öncə yaranmış məzhəkə və meydan tamaşaları teatrın rüşeymləri və qığılcımları kimi onun ilkinliyini qoruyub saxlamaqda bu gün də davam edir. Bunu, təbii ki, folklor nümunələrində də görmək mümkündür.

Onu da qeyd edək ki, 1961-ci il mart ayının 27-də UNESCO-nun Beynəlxalq Teatr İnstitutunun Vyanada keçirilən IX konqresi səhnə sənətinin tarixinə əlamətdar gün kimi yazılıb. O zaman qəbul edilən qərara əsasən hər il mart ayının 27-si Beynəlxalq Teatr Günü kimi qeyd edilir. Əslində, mart həm də bəşəriyyətdə teatrsevərlərin bayram ayıdır. Azərbaycan milli teatrının inkişafı bir sıra digər amillərdə də özünün təsdiqini tapıb. UNESCO-nun Beynəlxalq Teatr İnstitutunun konqresinin Bakıda keçirilməsi də məhz Azərbaycanın təkcə mədəniyyətinin deyil, həmçinin iqtisadiyyatının da bugünkü tərəqqisinin ifadəsidir.

Əsrlərdir ki, həyat hadisələrinin bədii ifadəsi olduğunu təsdiqləyən səhnə sənətinin yaşı Azərbaycanda 1873-cü ildən hesablanır. Bünövrəsi hələ meydan tamaşalarından qoyulan və bu günə qədər gəlib çıxan bir sıra folklor nümunələri ("Maraloyunu", "Zopu-zopu", "Kilimarası", eləcə də Novruz bayramı şənliklərində göstərilən "Kosa-kosa", "Qodu-qodu", həmçinin digər tamaşa və məzhəkələr) var ki, onlar səhnə sənətinin rüşeyimləri sayılıb.

Xalqımızın ulu öndəri Heydər Əliyevin Azərbaycan milli teatrının qazandığı nailiyyətlərlə bağlı söylədiyi fikirlər zamanlar keçsə də, öz aktuallığını həmişə qoruyub saxlayacaq: "Teatrımızın böyük tarixi, böyük ənənələri, gözəl nümunələri var. Milli teatr bu gün də, gələcəkdə də yaşayacaqdır".

Azərbaycan teatr tarixinə adları qızıl hərflərlə yazılan korifey sənətkarlarımızın fəaliyyətinə nəzər salsaq, bir daha yəqinləşdirərik ki, milyonlarla insanın həyat və təfəkkür tərzi - onların ictimai münasibətləri, baxışları, adətləri, inamları, idealları, arzu və istəkləri M.F.Axundzadə, S.S.Axundov, N.B.Vəzirov, Ə.B.Haqverdiyev, eləcə də S.Ruhulla, H.Sarabski, H.Ərəblinski, M.A.Əliyev, M.Sənani, F.Qədri, M.Kələntərli, İ.Osmanlı, A.Gəraybəyli, R.Əfqanlı, L.Abdullayev, B.Səfəroğlu, Y.Vəliyev, B.Şəkinskaya, C.Cəfərov, S.Rzayev, L.Bədirbəyli, H.Qurbanova, H.Turabov, N.Məlikova və digərlərinin yaradıcılığında təcəssüm etdirilib.

Şərəfli və keşməkeşli tarix yaşamış Azərbaycan milli teatrı müxtəlif siyasi, ictimai, mədəni mərhələlərdən keçib. Yarandığı vaxtlardakı ilk yaradıcılar, həvəskarlar teatra can yanğısı ilə yanaşıblar.

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, respublikanın xalq artisti Azərpaşa Nemətovun qənaətincə, M.F.Axundzadənin "Lənkəran xanının vəziri" və "Hacı Qara" komediyaları ilə pərdələrini geniş tamaşaçı üzünə açan Azərbaycan milli teatrı qarşısına qoyduğu məqsədə çatmaq üçün heç də hamar olmayan yollar keçib, siyasi cərəyanların bir-birini əvəz etməsindən meydana çıxan məşəqqətlər də yaşayıb. Lakin xalqımızın mədəniyyət, o cümlədən milli teatr tarixindən görünür ki, tamaşaçı məhəbbəti, sənətə bağlılıq qarşıya çıxmış bütün çətinlikləri aradan qaldırmaqla həyat hadisələrini səhnəyə daha böyük sevgi və şövqlə gətirib.

XIX əsrin 70-80-ci illərində Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən səhnə sənəti həvəskarları tədricən Bakıdakı teatr xadimləri ətrafında toplaşmağa başlayıblar. Ona görə də Bakının teatr həyatı XIX əsrin 80-ci illərinin sonlarına doğru yenidən canlanıb. Demək olar ki, bu da müəyyən bir teatr kollektivinin yaranmasına səbəb olub. 1887-ci ildən etibarən Bakıdakı teatr dəstəsinə H.Mahmudbəyov, S.M.Qənizadə və N.Vəliyev başçılıq ediblər. Onlar həmin dəstəni xeyli qüvvətləndirib truppa halına salıblar. Bu truppa 1888-ci ildən artıq müstəqil teatr kollektivi kimi fəaliyyətə başlayıb.

Şərqdə ilk dəfə olaraq peşəkar teatrın Bakıda yaranması xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, təbliğində, estetik zövqünün formalaşmasında, maarifləndirmənin sürətləndirilməsində mühüm vəzifələr yerinə yetirərək mütərəqqi ideyaların carçısına çevrilib.

Mədəniyyət tarixinin parlaq səhifələrini şərəflə yazan milli teatr dövlət müstəqilliyinin bərpasından sonra özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Məhz Azərbaycan milli teatrına dövlət və xalq məhəbbətinin təzahürüdür ki, yaradıcı kollektivlərin beynəlxalq mədəni əlaqələri genişlənir. Bu isə Avropa və Şərqdə mədəniyyətimizin təbliğində mühüm vasitələrdən biridir. Respublikadakı 27 dövlət, həmçinin bələdiyyə, uşaq və özəl teatrların səmərəli fəaliyyətini təmin etmək məqsədilə onlara hər cür qayğı göstərilir.

"Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" Azərbaycan Prezidenti İlham Əliyevin 19 fevral 2007-ci il tarixli sərəncamında milli mədəniyyətimizin inkişafında böyük rol oynayan teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq potensialının yaxşılaşdırılması üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan milli teatrının tarixi keçmişi və bugünkü vəziyyəti barədə söz açarkən unutmamalıyıq ki, onların bəziləri erməni vandalizminin qurbanlarına çevrilib. İrəvan, Şuşa, Ağdam, Füzuli dövlət dram teatrlarının kollektivləri ötən müddət ərzində qaçqınlıq-köçkünlük ağrılarını daşımaqla yanaşı, düşmənin mənfur, çirkin siyasətinin ifşasının bədii ifadəsini tapmaq üçün yaradıcı potensialından səmərəli istifadə edib.

Lakin müxtəlif yerlərdə, sadəcə, uyğunlaşdırılmış şəraitdə tamaşalar hazırlayan Füzuli Dövlət Dram Teatrı yenidən Horadiz şəhərinə qayıdaraq fəaliyyətini doğma yurd yerində bərpa edib. Ağdam, Şuşa, İrəvan dövlət dram teatrlarının öz fəaliyyətlərini davam etdirmələri, təbii ki, mədəniyyətimizə dövlət qayğısının təzahürüdür.

Azərbaycan Prezidenti İlham Əliyevin teatr xadimlərinin xahişini və mövcud durumu nəzərə alaraq, teatrların inkişafına əlavə dəstək verən, martın 4-də imzaladığı yeni sərəncam da bünövrəsi meydan tamaşalarından qoyulan bu sənətin uzunömürlülüyünə xidmət edəcək. Həm də ona görə ki, bu sənəti yaşadanlar yalnız səhnə fədailəri deyil, xalqın özüdür. Xalq isə özünün tarixi keçmişini yaşatmaqda mühüm vasitə rolu oynayan mədəniyyət və incəsənətin inkişafı yolunda daim mübarizələrdən keçib. Bu bayramın mart ayında keçirilməsinin isə xüsusi əhəmiyyəti var. Çünki Novruz tədbirləri də folklor nümunələri sayılan meydan tamaşaları və məzhəkələrlə daha çox yaddaqalan olur.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***




YADDAŞIN MÜHAKİMƏSİ

# Sürgündə dünyasını dəyişdi

**Ölkə Prezidentinin sərəncamı ilə ötən il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi respublikamızda, eləcə də yaxın və uzaq xarici ölkələrdə təntənə ilə qeyd olundu və proses bu gün də davam edir. Həmin təntənələrdə Azərbaycanın milli dövlətçilik tarixində payı olan cümhuriyyətçilər anılır, tarixin qaranlıq səhifələrinə genişliyi ilə işıq salınır.**

"Cümhuriyyət ili" kimi yadda qalan 2018-ci ildə hər kəs milli dövlət quruculuğunda əməyi olan neçə-neçə istiqlalçı ilə yaxından tanış oldu. Belə istiqlalçılardan biri də ömür yolu müasir gəncliyə örnək olan Azərbaycanın ilk hüquqşünası, professor, ictimai xadim Mustafa ağa Vəkilovdur.

Dövrünün parlaq simalarından olan Mustafa ağa Məmməd ağa oğlu Vəkilov 25 yanvar 1899-cu ildə Qazax qəzasının Salahlı kəndində dünyaya göz açıb. Orta təhsilini Tiflisdə Birinci oğlanlar gimnaziyasında alıb. Onun gimnaziyada oxuduğu müddətdə linqvistik istedadı üzə çıxıb. O, fransız, alman, latın dillərini əla qiymətlərlə oxumuş, gimnaziyanı medalla bitirmişdir. Gimnaziyanı bitirən ili Qafqaz cəbhəsi müsəlman qaçqınlarına yardım üzrə müvəkkil vəzifəsində işləmiş, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin Tiflisdəki daimi nümayəndəliyində tərcüməçi vəzifəsində çalışmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cu il sentyabrın 1-də keçirilən iclasında Bakı Dövlət Universitetinin təsis olunması və hökumətin təklifinə əsasən bu sahədə milli kadrların hazırlanması üçün 100 nəfər azərbaycanlı gənc dövlət hesabına xarici ölkələrə göndəriləndə Mustafa ağa Vəkilov da həmin gənclərin sırasında olmuşdur. O, Paris Universitetinə göndərilmiş və təhsilini hüquq sahəsində davam etdirmişdir.

1920-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyəti XI ordu tərəfindən süquta uğradıldıqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin maliyyə problemi ortaya çıxır. Bu zaman Mustafa ağa Vəkilov universitetin ikinci kursunda oxuyurdu. Mövcud çətinliklərə baxmayaraq, o, universiteti uğurla bitirir və hüquq magistri elmi dərəcəsi alır.

Mustafa Vəkilov Parisdə təhsilini başa vuraraq Moskvaya - Kremlə gəlmiş, orada MİK sədri N.Nərimanovla görüşmüşdür. N.Nərimanov gənc hüquqşünasa Kremldə qalıb ixtisası üzrə işləməyi təklif etmişdir. O, bu təklifi qəbul etməmiş və 1924-cü ildə Bakıya qayıtmışdır. O zaman hüquq sahəsi üzrə magistr dərəcəsinə sahiblənən və bir neçə xarici dildə sərbəst danışan Vəkilov bolşeviklərə də lazım idi. Bu səbəbdən o, Bakıda Konyuktor Bürosunda əvvəlcə katib, sonra isə rəis vəzifəsində işləmişdir. 1925-ci ilin mayında M.Vəkilov hakim kimi Ədliyyə Komissarlığına işə qəbul olunmuşdur. 1927-ci ildə Xalq Ədliyyə Komissarlığında müfəttiş-təlimatçı, eyni zamanda xüsusilə mühüm işlər üzrə xalq məhkəməsi hakimi vəzifəsində çalışmışdır. Bakı və onun rayonlarında mühüm mülki işlərə rəhbərlik də ona həvalə edilmişdi. 1928-ci ildə o öz xahişi ilə Ədliyyə Komissarlığından işdən azad olunmuşdur.



Mustafa ağa Vəkilov 30 aprel 1927-ci ildə öz bibisi qızı Müqəddəsnisə ilə ailə qurmuş, bu izdivacdan onların Çingiz adında oğlu, Nigar adında qızı olmuşdur.

Mustafa ağa Vəkilov 1927-ci ildən pedaqoji və elmi fəaliyyətlə məşğul olmuşdur. Əvvəl Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsində dərs demiş, bir müddət sonra AzDETİ təşkil olunduqda ali məktəbdə öz müəllimlik işinə fasilə verərək buranın sovet quruculuğu və hüquq şöbəsinin aspiranturasına qəbul olunmuşdur. 1930-1931-ci tədris ilinin sonlarında aspiranturanı bitirib (aspiranturanın ilk buraxılışı) dosent dərəcəsi almışdır.

Mustafa ağa Vəkilov 1935-ci ildə Azərbaycan SSR Konstitusiyasının türk mətninin redaktoru olmuşdur. O, eyni zamanda tərcümə və redaktə işlərinə böyük maraq göstərmişdir. 1935-ci ildə dövlət və hüquq elmləri namizədi alimlik dərəcəsi alaraq təsərrüfat-hüquq kafedrasının professoru olmuşdur. Beləliklə, o, Azərbaycanda hüquq professoru adını almış ilk azərbaycanlı alim olmuşdur.

1937-ci il repressiyaları zamanı Azərbaycan ziyalıları hədəfə götürüləndə Mustafa ağa Vəkilov da diqqətdən yayınmayıb. 1937-ci il noyabrın 21-i gecəsi Mustafa ağa Vəkilovun evində axtarış apararaq onu həbs edirlər. Mənzilində Firidun bəy Köçərlinin (Badisəba bibisinin əri) Azərbaycanın müxtəlif regionlarından min bir əziyyətlə topladığı folklor nümunələri götürülür. Mustafa ağa Vəkilovun istintaqı XDİK DTİ-nin 4-cü şöbəsi 6-cı bölməsinin əməliyyat müvəkkili, qəlbi şimal buzundan da soyuq olan Haqverdiyevə həvalə olunur.

"Cinayət işi"ndəki dindirmələrdən məlum olur ki, sorğu-suallar, işgəncələr qəsdən aylarca davam etdirilib. Müstəntiqlər Mustafa ağanın anasının Tehranda yaşayan qardaşı və onun siyasi baxışları ilə maraqlanırlar. Ona qarşı irəli sürülən əsas ittiham bundan ibarət idi ki, Mustafa Vəkilov "əksinqilabi millətçi təşkilatın üzvüdür, onu bu işə hüquq fakültəsinin keçmiş dekanı Quliyev Məcid cəlb etmişdir".

Onu tələbələr arasında əksinqilabi iş aparmaqda, onların beyninə Azərbaycanın əsarətdə olduğu, ölkənin sərvətlərinin talanıb aparıldığı, ruslaşdırma siyasəti yeridildiyi haqqında fikirlər doldurmaqda ittiham edirlər. Lakin bunun üçün əldə maddi sübut yox idi. Ondan "bəli, siz deyəndir" təsdiqi ilə hər şeyin etirafına çalışırdılar. İnstitutun bəzi müəllimlərindən onun əleyhinə alınan ifadələrdə göstərilirdi ki, guya Mustafa Vəkilovun mühazirələri qəlizdir, ruscadan bir kitab belə tərcümə etməyib, onun rəhbərliyi altında müdafiə edən Baratzadə dissertasiyasında burjua inqilabının rolunu düzgün izah etməyib, buna görə zalda olan tələbələr hay-küy salmışlar, Vəkilov ictimai işlərə əhəmiyyət vermir, kütlələrdən qaçır, kafedraya yaxşı rəhbərlik etmir, zaçot vaxtı azərbaycanlı tələbələrə aşağı qiymət yazır, onlar bundan narazı qalıblar və s.

NKVD zirzəmisində kamera yoldaşları onu böyük ehtiramla "professor" deyə çağırırdılar. Mustafa müəllim dindirilərkən özünü mərdanə aparır, ittihamları cəsarətlə rədd edirdi.

İl yarım çəkən məşəqqətli məhbəs həyatından, heç nəyi sübut edə bilməyən üzücü istintaqlardan sonra Mustafa ağa Vəkilov 1939-cu ilin martında edamlar, güllələnmələr dalğası zamanı nisbətən yüngül cəza ilə canını qurtara bilir. 1941-ci il yanvarın 25-də XDİK yanında keçirilən Xüsusi Müşavirədə Mustafa Vəkilov "antisovet-millətçi təşkilatda iştirakına görə" cəzasını islah-əmək düşərgəsində çəkməklə 5 il müddətinə azadlıqdan məhrum edilir. Ömrünün və pedaqoji fəaliyyətinin dəyərli illərini sürgündə keçirən Mustafa ağa Vəkilov cəza müddətini bitirsə də, vətənə dönə bilmir. O, son məktubunda bu barədə yazırdı:

"Əzizim Müqəddəsnisə! Təzə gətirildiyim yerdən sənə ikinci məktubumu yazıram. Birinci məktubun çatıb-çatmadığını bilmirəm. Buraya sürgün müddətinin bitdiyi səbəbincə azad edilmək üçün çağırılmışdım. Lakin son dəqiqədə elan etdilər ki, müharibə bitdikdən sonra azad ediləcəyəm. Mustafa..."

Lakin təəssüflər olsun ki, ilk hüquq professoru Mustafa ağa Vəkilov 1943-cü il aprelin 30-da sürgündə vəfat edir.

Sürgündə dünyasını dəyişən Azərbaycanın ilk hüquq professoru Mustafa ağa Məmməd ağa oğlu Vəkilova 27 dekabr 1955-ci ildə bəraət verilir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

TARİXİN İZİ İLƏ

## Repressiya qurbanı olmuş görkəmli elm və ədəbiyyat xadimlərinin həyatından məqamlar

### Uydurulmuş cinayətin amansız cəzası

**Repressiyaya uğramış Azərbaycan ziyalıları içərisində maarif komissarı Məmməd Cuvarlinski 33-cü idi. Onu Moskvada iyunun 25-də həbs edirlər. İyulun 8-də isə xüsusi mühafizə ilə Bakıya gətirilir və təkadamlıq ayrıca kamerada yerləşdirilir. Məhbusun Bakıya gətirilməsi çoxlarını sevindirir.**



İlk növbədə M.Bağırovun əmri yerinə yetirilmiş olur. Sumbatov dərhal Bağırovun adından Baş İstintaq Qərargahına əmr verir ki, Cuvarlinski ilə hər cür rəftar etmək olar. Bütün müstəntiqlər "qatı cinayətkara" qarşı cəzaların tədbirinə başlayırlar.

Cuvarlinskinin günahı nə idi? Məsələnin bütün mahiyyəti onun həbsxanadan Stalinə yazdığı məktubda açılıb göstərilir: "1936-cı ilin dekabrında Azərbaycan KP(b) MK-nın plenumunda respublika rəhbərliyinin yarıtmaz işini, nöqsanlarını tənqid etmişdim. Bu çıxışım Bağırovun etirazına səbəb olmuşdu. Elə həmin vaxtdan mən açıqca təqibə məruz qaldım.

1937-ci il martın 14-də Sovetlər qurultayının partiya qrupunda çıxış edərək Azərbaycan SSR-in Konstitusiya layihəsinə bəzi düzəlişlər etdim. O zaman M.Bağırov əleyhimə qalxaraq məni "qatı millətçilikdə" günahlandırdı. 1937-ci il martın 19-da plenum Bağırovun təklifi ilə məni MK-nın bürosundan, martın 20-də partiya işindən xaric etdi. Bütün bu çirkinliyə dözməyib Moskvaya gəldim və Malenkovun qəbuluna düşəcəyim günü gözlədim. Onun qəbulunda 1937-ci il iyunun 27-si və ya 28-i olmalı idim. Lakin iyunun 25-də gecə SSRİ XDİK-in nümayəndələri mənzilimə gəlib məni həbs etdilər. Artıq altıncı gündür ki, Butirski həbsxanasındayam..."

Əvvəllər heç bir günahı olmayan Məmməd Cuvarlinski ona qarşı əvvəlcədən hazırlanmış uydurma faktlara inadla etirazını bildirir və "yoldaş Stalinə" yazdığı məktubdan xəbər gələcəyinə ümid edirdi. Cavabdan isə səs-soraq yox idi...

"Günah"ını boynuna almaq üçün M.Cuvarlinskiyə olmazın işgəncələr verilir.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyası onu ən ağır cəzaya - güllələnməyə məhkum edir.

### Gülarə Qədirbəyovanın maarifçilik fəaliyyəti antisovet təbliğatı kimi qələmə verildi

**Xalq arasında və mətbuat aləmində Köylü qızı Gülarə təxəllüsü ilə tanınan jurnalist, müəllim, qadın azadlığı hərəkatı uğrunda fəal mübariz olan Azərbaycanın ziyalı qızının həyatını da repressiya dalğaları çıxılmaz burulğanlara yuvarlatmışdı.**



Köylü qızı 1932-1937-ci illərdə Əli Bayramov adına Mərkəzi Qadınlar Klubunun direktoru vəzifəsində çalışırdı. G.Qədirbəyova zamanın və taleyin verdiyi fürsətdən istifadə edərək maarifin inkişafı, pedaqoji kadrların artırılması, əhalinin siyasi cəhətdən savadlanması naminə çalışırdı. Bu prosesdə onun özü də püxtələşərək kamil bir şəxsiyyətə çevrilirdi. Lakin dövrün sərt olayları elə bir həddə gəlib çatmışdı ki, repressiya maşını işləyir, kimin desən, həyatını yarımçıq kəsirdi. Qədirbəyova da həmin minlərdən biri oldu. Onun əksinqilabi-millətçi təşkilatın üzvü kimi şərlədilər. "Dəlil-sübut" isə "Bir sarayın tarixi" adlı kitab oldu.

M.Bağırov "tamamilə məxfi" qrifi ilə Sumbatova yazırdı: "Qədirbəyovanın işi ilə əlaqədar əvvəl göndərilmiş materiallara əlavə olaraq bütün məktub və ərizələri sənə yollayıram. Bu işi ümumiləşdirin və lazım olduğu kimi axıra qədər təhqiq edin, görün, onun ətrafına toplaşan iyrənc yığıncağa gələn naməlum, şübhəli, Qədirbəyova və ifşa olunmuş xalq düşmənləri, keçmiş yazıçılarla əlaqədar olan adamlar kimlərdir".

1938-ci il iyulun 23-də Köylü qızının həbs olunması üçün order verilir, iyulun 26-da İsmayıllı rayonunun Basqal kəndinə anasının dəfninə gəlmiş Gülarəni elə oradaca həbs edirlər.

Həbs ediləndə 35 yaşı vardı. Köylü qızı haqqında deyilənlərin və yazılanların hamısı böhtan idi.

1939-cu ilin martında G.Qədirbəyova guya antisovet təşkilatında iştirak etdiyinə görə həbs düşərgəsinə sürgünə göndərilir. Elə sürgündəcə həlak olur.

### O, xalq düşməni ola bilməzdi

**Hənəfi Zeynallı ədəbiyyatşünas, alim, folklorçu, tənqidçi, müəllim, naşir idi. Çox qısa zamanda həmin fəaliyyət sahələrinin hər birində özünü doğrultmuşdu. Bəs nədə günahlandırılırdı H.Zeynallı? Elə işlərdə və hərəkətlərdə ki, onların heç biri alimin fəaliyyətinə yaxın belə gəlmirdi.**



1937-ci ilin repressiya qurbanlarının bütün istintaq materiallarında ilkin ifadələr təzyiqsiz alındığı üçün verilən izahatlar səmimi və riyasız olurdu. Lakin ifadələr "ÇK"nı qane etməyəndə işgəncələrlə dolu cəza maşını işə düşürdü. Görünməyən vəhşiliklər törədən cəza maşınının qarşısında isə çox az adam tab gətirirdi. Verilən işgəncələrə dözməyən H.Zeynallı da nəhayət saxta və yalançı süjetlər əsasında hazırlanmış ən ağır ifadələri belə imzalayır və günahkar olduğunu etiraf edir. 1937-ci il oktyabrın 12-də saat 16:25-də başlayan məhkəmə iclası saat 16:40-da sona çatır. Onun məhkəməsi cəmi 15 dəqiqə çəkir. Ən yüksək cəzaya - güllələnməyə məhkum edilir.

***Hazırladı:***
*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

ÖLÜM TƏCRİDXANASI

# "Solovki"

**1718-ci ildən fəaliyyət göstərən Solovki monastır həbsxanası Rusiya hökmdarının iradəsinə zidd hərəkətlər edən pravoslav iyerarxların, yeretiklərin və sektantların təcrid yeri olmuşdur. Təxminən 200 il fəaliyyət göstərən həbsxana 1903-cü ildə bağlanmışdır.**



1919-cu ildə Ümumrusiya Fövqəladə Komissiyası (ÜFK) Arxangelsk quberniyasında - Pertominsk, Xolmoqorı qəsəbələrində və Arxangelsk şəhəri yaxınlığında bir neçə məcburi islah əmək düşərgəsi təsis etmişdir. 1921-ci ildə bu düşərgələr Xüsusi Təyinatlı Şimal Düşərgələri (SLON) adlandırılmışdır.

1923-cü ilin əvvəlində ÜFK-ni əvəzləmiş Dövlət Siyasi İdarəsi (DSİ) Solovki arxipelaqında Şimal düşərgələrinin sayının artırılmasını təklif etmişdir. Artıq iyul ayında ilk məhbuslar Arxangelskdən Solovki adasına göndərilmişdir.

1923-cü il oktyabrın 13-də DSİ-nin Şimal düşərgələri ləğv olunmuş və onların bazasında Xüsusi Təyinatlı Solovki Məcburi İşlər Düşərgələri İdarəsi (USLON) yaradılmışdır. Monastırın bütün əmlakı onlara verilmişdir.

1927-ci il oktyabrın 1-nə olan məlumata görə, təkcə bu düşərgədə 12896 məhbus saxlanılırdı. Kim idi bu məhbuslar? Rusiya zadəganları, başqa millətlərdən olan görkəmli şəxsiyyətlər, Avropanın müxtəlif ölkələrində təhsil almış ziyalılar, sovet hakimiyyətinin qurulması uğrunda mübarizə aparan, ona kor-koranə inanan bütün adamlar, digər partiyaların, hətta yeni hakimiyyətə loyal münasibət bəsləyən təşkilatların üzvləri, üstəlik, yaxşı yaşadıqlarına görə günahlandırılan minlərlə günahsız kəndli.

Məhbuslar arasında Azərbaycan xalqının da ən yaxşı oğulları var idi. Təkcə Müsavat Partiyasının yüzlərlə üzvü dəfələrlə bu düşərgələrə sürgün edilmişdilər.

Düşərgənin mövcudluğu dövründə orada təxminən 7500 nəfər həlak olmuşdur. Onlardan 3500 nəfəri 1933-cü il aclıq dövründə dünyasını dəyişmişdi. Tədqiqatçıların yazdıqlarına görə, təkcə 1928-ci ildə dəmiryolu çəkilərkən 8 kilometrlik ərazidə 10 minə yaxın ukraynalı və Don kazakı ağır iş şəraiti üzündən həyatlarından olmuşlar.

#### "Siyasilərin" işgəncələri daha ağır olurdu...

1930-cu illərin əvvəllərində SSRİ-nin "cinayətkarlarla" siyasəti həbs düşərgəsində məhbusların əhəmiyyətli dərəcədə artmasına səbəb oldu. "Böyük təmizləmə" dönəmində kütləvi həbslər yüz minləri keçdi. 1931-1932-ci illərə aid arxivlər QULAQ düşərgələrində təxminən 200 min məhbusun olduğunu göstərirdi. 1935-ci ildə bu düşərgələrdə 800 min, koloniyalarda isə 300 min nəfərin saxlanıldığı bildirilirdi. Düşərgələr iki əsas tipə bölünürdü: CK-nın xüsusi məqsədli düşərgələri və məcburi əmək düşərgələri.

Məcburi əmək düşərgələrində, o cümlədən Solovkidə gərgin əmək, zəif qidalanma, dözülməz yaşayış şəraiti, yüksək ölüm faizi ölkəni bürümüş epidemiyaya bənzəyirdi. Solovki düşərgələrinin tarixinin tədqiqatçısı Yuri Brotski yazır ki, orada məhbuslara qarşı müxtəlif işgəncələr və alçaltma üsulları tətbiq edilirdi. Dustaqları iri sal daşları, ağır taxta-şalban yükünü tək daşımağa məcbur edirdilər. "İnternasional"ı bərkdən, qışqıra-qışqıra beş-altı saat ardıcıl olaraq onlara oxutdururdular. Əgər məhbuslardan biri oxumurdusa, iki-üç nəfəri elə yerindəcə öldürürdülər. Bundan sonra hətta onları ayaqüstə qışqıra-qışqıra oxumağa məcbur edirdilər. Bu işgəncələr çox vaxt gecələr, yaxud da ən sərt havada, şaxtada həyata keçirilirdi. Məhbuslar saatlarla adada oturub qağayıları saymalı olurdular. Onlar bir neçə saat yerində addımlamalı idilər. Məhbuslara fasiləsiz olaraq odun daşıtdırırdılar. Yorulmaq, ağrı-acı çəkmək qadağan idi. Səsini çıxaran məhbus əsgər tüfənginin ağır zərbəsinə tuş gəlirdi. Bu vəhşilikləri xüsusi adamlar həyata keçirirdilər. Polşalı məhbuslara qarşı isə xüsusi qəddarlıq göstərirdilər.

#### "Solovki" on il fəaliyyət göstərmişdi

1929-cu ildə yazıçı Maksim Qorki Solovkiyə gəlmiş, məhbusların yaşayışı ilə tanış olmuşdur. Yazıçı bu ölüm düşərgəsindən qayıtdıqdan sonra "Solovki" adlı oçerk yazmışdır. Bu oçerkdə yazıların reallığa uyğun olanları da vardı, olmayanları da.

Solovki düşərgəsinin yaradılmasında iştirakı olanların bir çoxu sonradan müəyyən günahlarına görə güllələnmiş, yaxud həbsə atılmışdır: Solovki düşərgəsinin təşkilinin təşəbbüskarı olan Arxangelsk vilayətinin siyasi xadimi İvan Vasilyeviç Boqovoy güllələnmişdir; Solovki üzərində qırmızı bayrağı qaldıran şəxsin özü həbs olunaraq bu düşərgəyə sürgün edilmişdir; düşərgənin ilk rəisi A.Noqtev 15 il müddətinə azadlıqdan məhrum olunmuş və Moskvada vəfat etmişdir; düşərgənin ikinci rəisi F.Exmans ingilis casusu kimi, digər rəisi Apeterdə güllələnmişlər.

1933-cü ilin dekabrında düşərgə buraxılmış, onun əmlakı Belomor-Baltika düşərgəsinə verilmişdir. Sonradan Solovkidə həmin düşərgənin bölmələrindən biri yerləşdirilmişdir. 1937-1939-cu illərdə isə Xüsusi Təyinatlı Solovki Həbsxanası fəaliyyət göstərmişdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## İslah Əmək Düşərgələri Baş İdarəsi - QULAQ

**1930-cu illərdən 1950-ci illərə qədər Stalin dönəmində məcburi əmək düşərgələrini idarə edən dövlət qurumu rusca qısaca QULAQ (Qlavnoye upravleniye spravitelno - trudovıx lagerey i kaloniy) adlanırdı.**

Kiçik cinayətkarlardan siyasi məhbuslara qədər çoxlu sayda dustaqların yerləşdirildiyi bu düşərgələr əsasən NKVD troykaları və mühakiməsiz edamın digər üsulları ilə idarə olunurdu. Çoxları bu düşərgələri insanların ölənə qədər işlədiyi sistem kimi təsvir edirdi. Məhbuslar cəzalarını çəkənə qədər ağır şəraitdə məcburi katorqaya məhkum edilirdilər.

1940-cı ilin martında SSRİ-də 53 QULAQ düşərgəsi idarəsi və 423 əmək koloniyası var idi. Təxminən 14 milyon insan 1929-cu ildən 1953-cü ilə qədər bu əmək düşərgələrində olmuşdur. 6-7 milyondan çox məhbus SSRİ-nin uzaq ərazilərinə sürgün edilmişdir. Hesablamalara görə, düşərgələrdəki insanların sayı 1934-cü ildə 510 min 307 nəfər idi. Lakin bu rəqəm artıq 1953-cü ildə 1.727.970 nəfərə çatmışdır. Digər hesablamalara görə, 1953-cü ilin əvvəllərində məhbusların ümumi sayı 2,4 milyondan çox olmuşdur. Bunların 465 min nəfəri siyasi məhbus idi.

Arxiv məlumatına əsasən, 1.0.53.829 insan 1934-1953-cü illərdə QULAQ-da dünyalarını dəyişmişlər. Ümumiyyətlə, 1929-1953-cü illərdə həmin düşərgələrdə 1,6 milyon insanın həlak olduğu bildirilir. Bu rəqəmin hətta 10 milyona qədər olduğu da ehtimal edilir.

1953-cü ildə Stalinin ölümündən sonra QULAQ ləğv edilmişdir.

KÜLƏK YARADANLAR TUFANA DÜŞDÜLƏR

# L.Beriyanın ziddiyyətli karyerası necə başa çatdı...

**SSRİ Xalq Daxili İşlər Komissarlığına başçılıq edən, yüz minlərlə insanın güllələnməsinə və sürgünə göndərilməsinə imza atanlardan biri də məşhur "sovet cəlladı" (onu belə adlandırırdılar) Lavrenti Pavloviç Beriya olmuşdu. Stalinin yaxın silahdaşlarından olan bu insan 1953-cü ilin dekabrında SSRİ Ali Məhkəməsinin hökmü ilə güllələnmişdi. L.Beriya onilliklər ərzində Rusiyanın bütün tarixi boyu mövcud olmuş ən qəddar fiqurlardan biri sayılırdı. Onu tez-tez çar İvan Qroznının yaxını Malyuta Skuratovla müqayisə edirdilər.**



L.Beriya siyasi repressiyalara görə əsas məsuliyyət daşıyan şəxs və Stalinin "baş cəlladı" idi. İosif Stalinin ölümündən sonra o, hakimiyyət uğrunda mübarizəni uduzaraq məğlubiyyətini təkcə öz həyatı hesabına ödəmədi, eyni zamanda Stalin dövrünün "qəddar insanı" kimi də tarixə düşdü.

1899-cu ilin martında Abxaziyanın kasıb kəndli ailəsində anadan olan Beriya 16 yaşında inqilabi hərəkata qoşulur, bir neçə dəfə həbs edilir. 21 yaşında Azərbaycan FK-nın sıralarında xidmətə başlayır. Daha sonra Gürcüstanda işləyir. Əks-inqilabçı qüvvələrin zərərsizləşdirilməsində iştirak etdiyinə görə "Qırmızı bayraq" ordeni alır. 1927-ci ildə Gürcüstanın xalq daxili işlər komissarı olur. 1931-ci ildə Gürcüstan FK MK-nın birinci katibi təyin edilir.

Lavrenti Beriya SSRİ NKVD aparatında 1938-ci ildə görünür. Beriyanın gəlişi ilə "böyük terror" bir müddət dayanır, 200 minədək adam həbsdən buraxılır.

1953-cü ilin martın 5-də İ.Stalin vəfat edəndə rəhbərlikdə hakimiyyəti tam ala biləcək fiqur yox idi. Ölkəni üç koalisiya - sovet hökumətinin rəhbəri və SSRİ-nin formal lideri G.Malenkov, partiyanın lideri N.Xruşşov, dövlət təhlükəsizliyi və daxili işlər nazirliklərini birləşdirib ona rəhbərlik edən Lavrenti Beriya idarə edirdi. Təbii ki, bu üçhakimiyyətlilik çox davam edə bilməzdi. Əgər hakimiyyət Beriyanın əlinə keçsəydi, ölkəni nə gözləyəcəyini demək çətin idi. Bəziləri iddia edirlər ki, bu, yeni repressiyalara səbəb olardı. Lakin Beriyanın planları nə olsa da, onu reallaşdıra bilmədi. N.Xruşşov qabaqlayıcı tədbirlərə başladı. O, G.Malenkov və daha iki nüfuzlu siyasətçi - Nikolay Bulqanin və Vyaçeslav Molotovla ittifaq bağlayıb Beriyaya hücuma keçdi. Mərkəzi Komitə əvvəlcə DİN-ə nəzarət edən xüsusi şöbə yaradır. Beriya təhlükəni hiss etmir. Xruşşov isə hərbçiləri, o cümlədən marşal Georgi Jukovu öz tərəfinə çəkə bilir.

1953-cü il iyunun 26-da Kremldə SSRİ Nazirlər Kabinetinin müşavirəsində N.Xruşşov gözlənilmədən Beriyanı dövlət əleyhinə fəaliyyətdə və Böyük Britaniyanın xeyrinə casusluqda ittiham edir.

Özünü itirmiş Beriya cavab verməyə çalışır. Lakin ona imkan vermirlər. Həlledici məqamda iclas zalına başda Jukov olmaqla generallar daxil olur və onlar Beriyanın əllərini qandallayırlar. Ona qarşı irəli sürülmüş ittihamlar "böyük terror" illərində irəli sürülən ittihamlardan az fərqlənirdi: casusluq, hakimiyyətdən sui-istifadə, kütləvi həbslər, zorakılıq halları, zorlanma və s.

1953-cü il dekabrın 23-də Lavrenti Beriya ölüm cəzasına məhkum edilir.

# Beynəlxalq aləm



## Finlandiya hökuməti istefaya çıxdı

Finlandiya Nazirlər Kabinetinin başçısı Yuxa Sipilya ölkə prezidenti Sauli Niinistəyə hökumətin istefası barədə ərizə təqdim etmişdir. Dövlət başçısı istefanı qəbul etmişdir. Bu barədə STT agentliyi xəbər verir.

Buna baxmayaraq, nazirlər səlahiyyət müddətləri bitməyənədək vəzifələrinin icrasını davam etdirəcəklər. Gələn ayın 14-də ölkədə parlament seçkiləri keçirilməlidir.

Koalision hökumətin istefası onunla izah edilir ki, Nazirlər Kabinetinin üzvləri sosial və səhiyyə islahatları ilə əlaqədar yekdil mövqe hazırlaya bilməmişlər.

## Hindistanın daha bir təyyarəsi Pakistanla sərhəddə qəzaya uğradı



Pakistanla Hindistan arasında sərhəddə Hindistan hərbi hava qüvvələrinin MiG-21 qırıcı təyyarəsi qəzaya uğramışdır. Hindistan tərəfindən verilən məlumata görə, qəzaya uğramış təyyarə gündəlik patrul həyata keçirirmiş.

Hadisə Racastan ştatının Bikaner şəhərinin yaxınlığında baş vermişdir. Pilot katapultdan istifadə edərək sağ qalmışdır. Qəzanın mümkün səbəblərindən biri kimi təyyarənin "Nal" bazasından havaya qalxdıqdan sonra quşla toqquşması göstərilir.

Bu, son iki həftə ərzində Hindistan-Pakistan sərhədi rayonunda Hindistanın qəzaya uğrayan üçüncü təyyarəsidir. Əvvəlki iki təyyarəni Pakistan hərbi hava qüvvələri vurmuşdu.

## Meksikada qaçqınları daşıyan maşın dərəyə düşdü



Meksikanın Çyapas şəhərində qaçqınları daşıyan yük maşını qəzaya uğrayaraq dərəyə yuvarlanmışdır. Nəticədə 25 nəfər həlak olmuş, 29 nəfər yaralanmışdır.

Yerli KİV-in xəbərinə görə, hadisə Sarabia qəsəbəsinin yaxınlığında baş vermişdir.

Hakimiyyət orqanları ölənlərin sayının artacağından ehtiyatlanır. Prokurorluq yol-nəqliyyat hadisəsini təhqiq etməyə başlamışdır.

Hüquq mühafizə təşkilatlarının məlumatına əsasən, hər il Mərkəzi Amerikanın yoxsul ölkələrinin 400 minə yaxın sakini Meksika ərazisi ilə ABŞ-a keçməyə cəhd edir. Bu yolda onları bir çox təhlükələr gözləyir. Qaçqınlar tez-tez cinayətkar qruplaşmaların, yaxud insan alverçilərinin qurbanına çevrilirlər.

## Pentaqonun büdcəsi 750 milyard dollara çata bilər



ABŞ Prezidenti Donald Tramp bu il oktyabrın 1-də başlayacaq 2020-ci maliyyə ili üçün Konqresdən hərbi xərclərə 750 milyard dollar istəyəcək. Bu barədə Vaşinqton administrasiyasındakı mənbələrə istinadən "Axios" informasiya portalı xəbər verir.

Məlumata görə, Ağ ev martın 11-də dərc edəcəyi büdcə sifarişini 2020-ci maliyyə ili üçün ölkənin hərbi xərclərinə 750 milyard dollar ayırmağı təklif edəcək. Bu vəsaitin 576 miyardı Pentaqonun baza xərclərinə, qalan məbləğin böyük hissəsi isə xarici əməliyyatlara sərf olunmalıdır. 2019-cu maliyyə ili üçün qanunvericilər 716 milyard dollar ayırmışdılar. Ötən il Tramp baza xərclərinə 629 milyard, xarici əməliyyatlara isə 71 milyard ayırmağı istəmişdi.

Xatırladaq ki, ötən il avqustun 13-də Tramp 2019-cu maliyyə ili üçün 716 milyard dollar həcmində müdafiə büdcəsi imzalamışdır. Bu, 2018-ci maliyyə ili ilə müqayisədə təxminən 82 milyard çoxdur.

## Floridada təyyarə gölə düşdü



ABŞ-ın Florida ştatında kiçik ikimühərrikli "Piper PA-23-250" təyyarəsi qəzaya uğramışdır. Nəticədə beş nəfər həlak olmuşdur. Bu barədə Palm-Biç dairəsi şerifinin ofisinə istinadən "The Miami Herald" qəzeti xəbər verir.

Məlumata görə, təyyarə Tampa aeroportundan havaya qalxandan bir az sonra gölə düşmüşdür.

ABŞ Federal Mülki Aviasiya İdarəsi və Nəqliyyatda Təhlükəsizlik üzrə Milli Şura baş vermiş qəzanın səbəblərini təhqiq edəcək.

# Xəstəlik sərhəd tanımır

### Mütəxəssislər hesab edirlər ki, mal-qaranı quduzluqdan qorumaq üçün tədbirlər gücləndirilməlidir

Ölkənin ərzaq məhsullarına tələbatının təmin olunmasına oğuzlular da öz töhfələrini verirlər. Rayonda digər sahələrlə yanaşı, ət və süd məhsullarının istehsalının artmasına xüsusi diqqət yetirilir. Bu baxımdan rayonun baytarlıq idarəsinin üzərinə böyük məsuliyyət düşür. Baytarlar rayon ərazisindəki heyvanların və quşların sağlamlığını nəzarətdə saxlayır, baş verə biləcək xəstəliklərin qarşısının alınması üçün tədbirlər görürlər.

İdarənin rəisi Şabəddin Ramazanov dedi ki, keçən il Oğuzda 25,3 min baş qaramal, 61 min başa yaxın davar və 190 min baş quş olub. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tərtib edilmiş epizootik planda nəzərdə tutulan bütün tədbirlər həyata keçirilib və bunun sayəsində təsərrüfatlarda heç bir yoluxucu xəstəlik hadisəsi qeydə alınmayıb.

Bunlarla yanaşı, Oğuzda ət, süd, yun və s. heyvandarlıq məhsulları istehsalı üzrə nəzərdə tutulan proqnozlar əsasən özünü doğruldub, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülüb, o cümlədən süni mayalanmaya diqqət artırılıb. Nəticədə ötən il rayonda 400-ə yaxın buzov alınıb və onların sahiblərinə subsidiyalar verilib.

Müsahibimiz onu da dedi ki, mal-qara arasında xəstəliklər nəzarətdən kənarda qalan təsərrüfatlarda müşahidə olunur: "Əsasən pastelyoz, brazot və bu qəbildən olan digər xəstəliklərə rast gəlinir. Ona görə də bu cür halların qarşısının alınması üçün bələdiyyələrə müraciət olunur ki, ya özləri, yaxud da heyvan sahibləri peyvənd üçün lazım olan vaksinləri alsınlar".



Yeri gəlmişkən qeyd edək ki, Rusiya Federasiyası ilə sərhəddə yerləşməsi də Oğuzda heyvanların xüsusi nəzarətdə saxlanılmasını tələb edir. Rayon ərazisində Filfilli, Xalxal və Baş Daşağıl olmaqla 3 sərhəd-keçid məntəqəsi var. Ona görə də bu ərazilərdə nəzarətdən kənar mal-qara keçirilməsi mümkün deyil. Onu da bildirək ki, əvvəlki illərdə keçid məntəqələrində heyvanların giriş-çıxışına sərhədçilərlə yanaşı, orada fəaliyyət göstərən baytarlar da nəzarət edirdilər. Lakin keçən ildən bu ikiqat nəzarət mexanizmi ləğv edilib. İndi bu işlə yalnız sərhədçilər məşğul olurlar.

Onu da qeyd edək ki, son vaxtlar rayonlarda quduzluq problemi ilə bağlı müşahidə olunan hallar Oğuzda da narahatlıq doğurur. Keçən il sahibsiz itlərin dişləməsi nəticəsində heyvanlar arasında quduzluqla əlaqəli iki hadisə baş verib. Amma heç kim zəmanət vermir ki, belə hadisələrin sayı artmayacaq. Bu səbəbdən sözügedən istiqamətdə ciddi tədbirlər görülməlidir. Belə tədbirlərin nümunəsi də var. Məsələn, əvvəlki illərdə baytarlıq idarələrinə paylanılmış farşın içərisinə yerləşdirilən preparat sərhəd ərazilərində olan meşələrdə müəyyən yerlərə qoyulur və bu, quduzluqla mübarizədə səmərəli nəticə verirdi. Bu yolla quduz itlərlə yanaşı, çaqqal, canavar və digər yırtıcılar da zərərsizləşdirilirdi. Hətta 4-5 il belə bir xəstəliyin əlaməti olmurdu. Lakin sonradan bu cür tədbirlər dayandırıldı, halbuki onun davam etdirilməsinə bu gün də ehtiyac var. Ən azından ona görə ki, həm heyvanlar üçün ciddi təhlükə mənbəyi olan quduzluq aradan qalxar, həm də əhalinin bu sarıdan təhlükəsizliyi təmin olunar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Dünya olduğu kimi

## İnsanın içini göstərən pəncərə

**Fizika tarixində XIX əsrin sonu bir sıra mühüm kəşflərin edilməsi ilə əlamətdardır ki, bu kəşflər bəzi fiziklərin dünyagörüşlərində elmi inqilab yaratdı. Rentgen şüalarının kəşfi məhz bunlardan biridir. 1895-ci il noyabrın 8-də alman fiziki Vilhelm Rentgen gözə görünməyən qəribə xassəli şüalar kəşf edir.**





Qazların elektrik keçirməsinin və katod şüalarının tədqiqi rentgen şüalarının kəşfinə səbəb oldu. V.Rentgen seyrəldilmiş qazlardan elektrik cərəyanı keçərkən qazın işıqlanmasını öyrənirdi.

Yorulmuş alim gecə öz təcrübəsindən ayrılıb gedərkən otağın işığını söndürüb qapıdan çıxandan sonra yadına düşür ki, qurğunu cərəyandan ayırmayıb. Rentgen qaranlıqda geri qayıdarkən borudan bir az aralı qəribə mavi işıq gördükdə təəccüblənir. O, cərəyanı ayırdıqda işıqlanma kəsilir. Yenidən qoşduqda kristallar işıqlanır. Rentgen qalın kitabla borunu kristallardan ayırdıqda işıqlanma zəifləmirdi. O, müəyyən edir ki, borudan çıxan "yeni" şüalar kitabdan asanlıqla keçir və zəifləmir. Rentgen növbəti təcrübələrin birində boşalma borusunu çexolladıqda platin-gümüş sianid ekranının işıqlandığını müşahidə edir.

Yeniliyi görən Rentgen başa düşür ki, boşalma borusu işlədikdə güclü keçmə qabiliyyətinə malik olan şüalanma yaranır. O öz kəşfini Vürtsburq Təbiəti Öyrənənlər Cəmiyyətinin iclasında nümayiş etdirir. Alim yeni şüaların xassələrini ətraflı öyrəndiyinə görə yığıncaq həmin şüalara Rentgen adı verir.

Rentgen şüaların sirrini öyrənərkən qəribə fotoşəkillər çəkir və yeddi həftə laboratoriyanı tərk etmir.

Bu şüaların xassələrinə görə müxtəlif tətbiq sahələri barədə camaat arasında çoxlu şayiə yayılır. Onlar qorxurdular ki, Rentgen şüalarının köməyi ilə onların fikirlərini oxumaq, divar arxasından mənzillərinə baxmaq mümkün olacaqdır. Bəzi qəzetlər isə hətta Rentgen şüaları ilə işıq salınmasını əxlaqsızlıq, ədəbsizlik olduğunu elan etdilər. Lakin onlar bilmirdilər ki, bu şüalar gələcəkdə milyonlarla insana şəfa verəcəkdir.

Günəş və digər kosmik obyektlər Rentgen şüalarının təbii mənbələridir. Rentgen şüaları gözlə görünmür. Onları yalnız göstərdikləri təsirə görə müəyyən etmək olar. Rentgen şüaları metallardan, qeyri-metaldan, üzvi maddələrdən keçə bilir. Bu səbəbdən rentgen şüaları tibdə, texnikada istifadə olunur. Rentgen şüaları atomun, molekulun, kristalların quruluşunu öyrənməyə imkan verir.

Beləliklə, rentgen şüaları xəstələrin müayinə və müalicəsinin əvəzsiz vasitəsinə çevrildi, bunları texnikada tətbiq etdilər, elmdə yeni dövr açıldı, atomun quruluşunun tədqiqinə başlandı. Atomun kristal daxilində düzülmə qaydasını rentgen şüalarının köməyi ilə öyrəndilər.

## Bilirsinizmi...



- İnsanları barmaq izindən, itləri isə burun izindən tanımaq mümkündür.
- Dəvələrin üç ədəd qaşı var.
- Qütb ayılarının solaxay olduğunu, zürafələrin üzə bilmədiyini, sadəcə, dişi ağcaqanadların dişlədiyini, ilanların eşitmədiyini bilirdinizmi?
- Eşşəklərin gözləri dörd ayaqlarını görə biləcək şəkildədir.
- Zürafələr 35 sm uzunluğunda qara bir dilə sahibdirlər.
- Heyvanlar aləmində sadəcə donuzlar günəşdən yana bilir.
- Bayquş mavi rəngi görə bilən yeganə quşdur.
- Saçları tez yağlanan insanlar zəkalıdır. Deyilənə görə, zəkalı insanın saçlarında daha çox qalay və mis var.
- ABŞ-da yaşları 20 ilə 29 arasında olan zənci kişilərin üçdəbiri həbsdədir.
- Bir kişi həyatının təxminən 3350 saatını taraş üçün sərf edir.
- Beynimiz özünü çox yüklənmədən qorumaq üçün müəyyən zaman aralıqlarında bildiyi çox şeyi unudur.
- Televizor şoularında eşitdiyiniz gülüş səsləri 1950-ci illərdə qeydə alınıb. Yəni əslində ölü insanların gülüşünü eşidirsiniz.
- Bir timsahın gözlərinin arasındakı məsafə bir ayağının ölçüsünə bərabərdir.
- Bukingem sarayında 602 otaq var.
- Ən çox asfalt yola sahib ölkə Fransadır.
- Yuxusuzluq şikayəti ilə həkimə müraciət edən insanların IQ səviyyəsinin normadan yüksək olduğu müşahidə edilir.
- İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
- "Karaoke" sözü yapon dilində "quru orkestr" sözünün qısaldılmasıdır. "Kara" yapon dilində boş deməkdir.

## Marsda yaşayacağımız evlər



Çin firmaları tərəfindən Marsda yaşamaq üçün icad edilən evlər təqdim edilib.

"Mars Case" adlı kapsul ölçüsünə sahib bu evlərin içində yataq, tualet və masa yerləşir.

Astronomlar Marsda bu evlərdə yaşayacaqlar.

## Yuxuda donuruqsa...

Əgər gecələr sizə qarabasmalar əzab verirsə, böyük ehtimalla yuxuda donursunuz. Elmi faktdır - yataq nə qədər soyuq olarsa, o qədər çox qorxulu yuxular görəcəksiniz.

## Siz neçə dəqiqəyə aşiq ola bilərsiniz



Mütəxəssislərin müşahidələrinə görə, mavi gözlü adamlar bir neçə dəqiqə ərzində aşiq ola bilərlər, qonur gözlü insanlar isə eyni zamanda iki nəfəri sevə bilərlər.

Yaşıl gözlü adamların aşiq olması üçün uzun müddət lazımdır, hətta bir ilə yaxın. Yerdə qalanlar üçünsə bir saat bəs edir.

## Ətyeyən bitkilər

**Digər canlılar kimi bitkilərin də yaşaması üçün torpaq, su və havaya ehtiyacı var. Hər bir canlı üçün zəruri ehtiyaclardan biri də azotdur. Başqa bitkilərdən fərqlənən ətyeyən karnivorus bitkiləri azotu az olan torpaqlarda bitdiyindən ona olan ehtiyacını ödəmək üçün həşəratları və kiçik heyvanları "yeyir".**





Ətyeyən bitkilər özləri ov ardınca getmir, cəlbedici rəngləri və iyləri sayəsində böcəkləri cəlb edir, onları proteinə çevirəcək tələnin içinə salır. Həşəratlar bu bitkilərin ifraz etdiyi maddənin "şəkər" olduğunu düşünüb, bitkinin yarpaqlarındakı tüklərə toxunurlar. Böcəyin tüklərə dəyməsi nəticəsində bitkidə mexaniki dəyişiklik meydana gəlir. Bu dəyişiklik qısa vaxtda tüklərin altındakı qəbuledicilərə ötürülür. Qəbuledicilər isə meydana gələn elektrik siqnallarını yarpağın hər tərəfinə yayır. Siqnallar yarpaqları hərəkətə gətirəcək hüceyrələrə qədər gedib çatır və bitki bir göz qırpımında (təqribən saniyənin ondabiri qədər) bağlanır.

Bu cazibədar yarpaqlar bağlanan kimi böcəklər özlərini qaranlıq bir mühitdə görürlər. Böcəklərin ilk refleksi, təbii ki, var gücləri ilə çırpınmaq olur. Ancaq bu cəhdlər sadəcə olaraq yarpaqların daha da sıx bağlanmasına gətirib çıxarır. Çünki böcək hər dəfə çırpınanda tüklərə toxunur və beləliklə, proses daha da "güclənir". Belə olduqda yarpaqların daxilindəki həzm vəziləri də prosesdən xəbərdar olur və "həlledici" maye ifraz etməyə başlayır. Beləliklə, böcək yavaş-yavaş bitkinin həzm edə biləcəyi proteinlə zəngin bir qidaya çevrilir. Həzm prosesi tamamlandıqdan sonra sistem tam tərsinə işləməyə başlayır və tələ açılır.

## Aclıq güc gələndə nə olur

**Aclıq və əhəmiyyətli dərəcədə kalorinin məhdudlaşdırılması nəticəsində avtofagiya (qısamüddətli aclıq zamanı başlayır, orqanizmdəki zərərli maddələri xaric edir) prosesi - köhnəlmiş molekulların və hüceyrə komponentlərinin təkrar emalı başlayır və həmçinin uzunömürlüyə yönəldilən siqnallar verilir.**



Maddələr mübadiləsi hormonal dəyişikliklər sayəsində əhəmiyyətli dərəcədə zəifləyir. Uzun müddət ac qalan insanların vəziyyəti qış yuxusuna getmək kimi təsvir olunur.

Aclığın ilk günlərində maddələr mübadiləsi zülallardan qlükoza formalaşmasına keçid edir və əzələlərin həcmi azalır. Bu, qlükonogenez adlanır. Nəticədə yağ toxumaları əsas enerji mənbəyinə çevrilir.

Yağdan qlükozanı əvəzləyən ketonlar - energetika valyutası yaranır. Bu proses isə ketogenez kimi tanınır. Bu, çox vacib prosesdir, çünki beyin enerji mənbəyi kimi yalnız qlükozadan və ketondan istifadə etməyə qadirdir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8569
Sifariş 822
Qiyməti 40 qəpik